Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi

F. Köçərli adına Respublika Uşaq Kitabxanası



# Azərbaycan və dünya poeziyasının qiymətli incisi Nizami Gəncəvi

**Nizami Gəncəvinin 880 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı 2021**

**Tərtibçilər:** **Aynurə Əliyeva**
**Sevil Əhmədova**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*

**Redaktor:** **Ruhiyyə Məmmədli**

**Azərbaycan və dünya poeziyasının qiymətli incisi** - Nizami Gəncəvinin 880 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / tərt.ed. Aynurə Əliyeva ixt.red. və burax. məsul Ş. Qəmbərova; red. R.Məmmədli - Bakı: F. Köçərli ad. Respublika Uşaq Kitabxanası, 2021. -58 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2021**

# Giriş

Bu meydanda sanma asandır durmaq,
Nizamilə pəncə-pəncəyə vurmaq.
Nizamiyə pəncə uzatsa hər kəs,
Qırılar pəncəsi, murada yetməz.
Şir pəncəsi gərək şirlə edə cəng
Barı şir olmasa, qoy olsun pələng.
Nizami bir fildir, yox bərabəri,
Söz incisi ondan aldı dəyəri.

*Əlişir Nəvai*

Dünya mədəniyyət tarixinin zənginliyi sonsuz bir ümmanı xatırladır. Bu sonsuz ümman insan zəkasının bəhrəsi olan nadir elm, fəlsəfə və sənət inciləri ilə dolu zəngin xəzinədir. İnsanlığın dərin ehtiram və məhəbbətlə qoruyub saxladığı və yaşatdığı bu mənəvi mədəniyyət xəzinəsində orta əsr Azərbaycan fəlsəfə poeziyasının ən görkəmli nümayəndəsi, Şərqi və Qərbi əsrlər boyu məftun etmiş Nizami Gəncəvinin insanpərvər yaradıcılığı xüsusi yer tutur. Nizami Gəncəvi humanist, mütəfəkkir şair kimi şöhrət qazanmış, əsərləri dünya bədii söz xəzinəsinin incisi kimi sənət sərraflarının diqqətini cəlb etmişdir. Nizami Gəncəvi əsərlərində qaldırdığı bəşəri ideyalarla bir-birini əvəz edən bütün nəsillərin, eləcə də bizim mənəvi müasirimizdir.

Azərbaycan ədəbiyyatı böyük Nizamiyə qədər mürəkkəb və şərəfli yol keçmişdir. Bir tərəfdən Qətran Təbrizi, Əbül-Üla Gəncəvi, Şihabəddin Söhrəverdi, Məhsəti Gəncəvi, "Kitabi Dədə Qorqud" kimi möhtəşəm bir abidə ilə təmsil olunan söz sənətinin ən layiqli varisi olaraq meydana çıxan Nizami Gəncəvi özünəqədərki mədəniyyəti əlçatmaz zirvəyə qaldırmışdır. Nizami poeziyası fikir və düşüncə baxımından zəngin bir ümmandır. Mayası elm və ürfan, qayəsi insana və dünyaya məhəbbət olan bu poeziyada insan yerlərin və göylərin

sirlərini öyrənməyə, dərk etməyə həyatını öyrəndiklərinə uyğun qurmağa çalışan fəal bir şəxsiyyətdir. Bəli, Nizami Gəncəvi Azərbaycan xalqının bəşəriyyətə bəxş etdiyi dahi şəxsiyyətlərdəndir.

Nizami Gəncəvi sözün qüdrətinə inanırdı. Bəşər həyatının ən yüksək xariqəsi olan sözü Tanrı vergisi adlandıran Nizami felən sübut edirdi ki, insanları və müxtəlif nəsilləri bir-birinə bağlayan, keçmişi ilə bu günü arasında qırılmaz körpü yaradan və beləliklə, bəşəriyyətin vahidliyini, ölməzliyini, tarixi tərəqqinin yürüşünü təmin edən yalnız sözün qüdrətidir. Sözün işə, əmələ çevrilməsi isə insan ruhunun ölməzliyidir.

Nizami Gəncəvinin 880 - illik yubileyi münasibəti ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2021-ci ilin "Nizami Gəncəvi İli" elan edilməsi haqqında Sərəncam imzalamışdır. Bu sərəncama əsasən yazılan *"**Azərbaycan və dünya poeziyasının qiymətli incisi – Nizami Gəncəvi**"* adlı metodik vəsait iki hissədən ibarətdir. *"Bədii sözün tanrısı"* adlanan I hissə Nizami Gəncəvinin həyat və yaradıcılığından bəhs edir. *II hissə isə "Kamillik zirvəsində dayanan dahi- Nizami Gəncəvi"adlanır və* şairin yubileyi ilə bağlı virtual şəkildə təşkil olunan tədbirlərin ssenarisi oxuculara təqdim olunur.

**Azərbaycan Respublikasında 2021-ci ilin "Nizami Gəncəvi İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

Dünya ədəbiyyatının görkəmli nümayəndəsi, dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvi bəşəriyyətin bədii fikir salnaməsində yeni səhifə açmış nadir şəxsiyyətlərdəndir. Nəhəng sənətkarın xalqımızın mənəviyyatının ayrılmaz hissəsinə çevrilmiş parlaq irsi əsrlərdən bəri Şərqin misilsiz mədəni sərvətlər xəzinəsində özünəməxsus layiqli yerini qoruyub saxlamaqdadır.

Nizami Gəncəvi ömrü boyu dövrün mühüm mədəniyyət mərkəzlərindən olan qədim Azərbaycan şəhəri Gəncədə yaşayıb yaradaraq, Yaxın və Orta Şərq fəlsəfi-ictimai və bədii-estetik düşüncə tarixini zənginləşdirən ecazkar söz sənəti incilərini də məhz burada ərsəyə gətirmişdir. Nizami Gəncəvinin geniş şöhrət tapmış "Xəmsə"si dünya poetik-fəlsəfi fikrinin zirvəsində dayanır. Mütəfəkkir şair çox sayda davamçılarından ibarət böyük bir ədəbi məktəbin bünövrəsini qoymuşdur. Nizaminin ən məşhur kitabxana və muzeyləri bəzəyən əsərləri Şərq miniatür sənətinin inkişafına da təkan vermişdir.

Nizami dühası hər zaman dünya şərqşünaslığının diqqət mərkəzində olmuşdur. Ölkəmizdə Nizami sənətinin öyrənilməsi və tanıdılması sahəsində xeyli iş görülmüş, əsərlərinin nizamişünaslıqda yüksək qiymətləndirilən elmi-tənqidi mətni hazırlanmış, kitabları nəfis tərtibatda və kütləvi tirajla nəşr edilmişdir. Nizaminin ədəbiyyatda və incəsənətdə yaddaqalan obrazı yaradılmışdır. Mütəfəkkir şairin doğma şəhəri Gəncədə məqbərəsi, Bakıda, Sankt-Peterburqda və Romada heykəlləri ucaldılmışdır. Azərbaycan Milli Elmlər Akademiyasının Ədəbiyyat İnstitutu və Milli Azərbaycan Ədəbiyyatı Muzeyi Nizami Gəncəvinin adını daşıyır. Böyük Britaniyanın Oksford

Universitetinin Nizami Gəncəvi Mərkəzi uğurla fəaliyyət göstərir.

Nizami Gəncəvinin yubileyləri ölkəmizdə hər zaman təntənə ilə keçirilmişdir. Dahi şairin 800 illik yubileyi onun irsinin tədqiqi və təbliğində əsaslı dönüş yaratmışdır. Azərbaycanın klassik ədəbi-mədəni irsinə həmişə milli təəssübkeşlik və vətənpərvərlik mövqeyindən yanaşan ümummilli lider Heydər Əliyev Nizami irsinə də xüsusi diqqət yetirmişdir. Heydər Əliyevin təşəbbüsü ilə 1979-cu ildə qəbul olunmuş "Azərbaycanın böyük şairi və mütəfəkkiri Nizami Gəncəvinin irsinin öyrənilməsini, nəşrini və təbliğini daha da yaxşılaşdırmaq tədbirləri haqqında" qərar Nizami yaradıcılığının tədqiqi və təbliği üçün yeni perspektivlər açmışdır. Ölməz sənətkarın 1981-ci ildə Ulu Öndərin bilavasitə təşəbbüsü və iştirakı ilə keçirilən 840 illik yubiley mərasimləri ölkənin mədəni həyatının əlamətdar hadisəsinə çevrilmişdir. 2011-ci ildə Nizami Gəncəvinin 870 illiyi dövlət səviyyəsində silsilə tədbirlərlə geniş qeyd edilmişdir.

2021-ci ildə dahi şair və mütəfəkkir Nizami Gəncəvinin anadan olmasının 880 illiyi tamam olur. Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, qüdrətli söz və fikir ustadının insanları daim əxlaqi kamilliyə çağıran və yüksək mənəvi keyfiyyətlər aşılayan zəngin yaradıcılığının bəşər mədəniyyətinin nailiyyəti kimi müstəsna əhəmiyyətini nəzərə alaraq qərara alıram:

1. 2021-ci il Azərbaycan Respublikasında "Nizami Gəncəvi İli" elan edilsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Nizami Gəncəvi İli" ilə bağlı tədbirlər planı hazırlayıb həyata keçirsin.

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 5 yanvar 2021-ci il.

## Həyat və yaradıcılığı

Azərbaycanın dahi şairi Nizami Gəncəvi 1141-ci ildə Gəncədə anadan olub. O, Gəncədə doğulub böyüdüyünə görə Gəncəli mənasında Nizami Gəncəvi adıyla tanınıb. Şairin əsl adı İlyasdır. Nizami hələ uşaq ikən atasını, sonra da anasını itirib. Onun tərbiyə və təhsilini dayısı Xacə Ömər öz üzərinə götürüb, böyüdüb. Böyük şair "Leyli və Məcnun" poemasının müqəddiməsində atası ilə anasını, sonra da dayısını itirməsindən kədərlər içərisində bəhs edir.

Nizami Gəncəvi dayısının himayəsində tək deyil, öz qardaşı Qivami Mütərrizi ilə birlikdə yaşayıb. Bu gənc qardaşlar, uğradıqları fəlakətə baxmayaraq, öz zamanlarına görə yüksək təhsil alıb, yaxşı yetişiblər. Nizaminin yüksək təhsil alması ona "müdrik" ləqəbinin verilməsindən aydın olur. Onun müdrikliyini, islam alimləri ilə yanaşı, tanınmış yunan filosoflarını "İsgəndərnamə" də danışdırması, onların dünyanın yaradılışı haqqındakı fikir sistemlərini özünəməxsus şeir dili ilə xülasə etməsi təsdiq edir. Bundan əlavə, şair öz şeirlərində tarixə, müqəddəs dinə, hikmətə, riyaziyyata, astronomiyaya dair geniş məlumata sahib olduğunu göstərib.

Şairin musiqi aləmində geniş biliyə sahib olduğunu Barbədin Xosrov-Pərvizə çaldığı otuz mahnının hərəsini ustalıqla bir beytlə təsvir etdiyindən görürük. Ədəbiyyat sahəsində olan dərin məlumatını "Kəlilə və Dimnə" nin təmsillərinin qırxını qırx beytə sığışdıra bilməsindən anlayırıq. Astronomiya sahəsində böyük mütəxəssis olduğunu isə Məcnunun ulduzlara öz vəziyyətini şərh etməsindən öyrənirik.

Nizaminin əsərlərinə yazdığı müqəddimələrdən çıxan məlumatlardan onun qədim dillərdən pəhləvi, nəsturi, yəhudi dillərini də bildiyini öyrənirik. O öz poemaları üçün topladığı materialları adi və geniş yayılan sadə mənbələrdən deyil, qeyd

edilən qədim dillərdəki məxəzlərdən dəqiq tədqiqatlar vasitəsilə əldə etdiyini anlatmışdır.

Şairin ilk evləndiyi qadın Dərbənd hakiminin göndərmiş olduğu qıpçaqlı bir kəniz olub. Nizami bu türk qızını ürəkdən sevib və onunla evlənib (1173-cü il). Canı qədər sevdiyi və əsərləri qədər istədiyi bircə oğlu Məhəmməd həmin türk gözəlindən dünyaya gəlib. "Xosrov və Şirin" i yazarkən (1180-ci il) qıpçaqlı gözəl vəfat edib. Şair dünya ədəbiyyatında misilsiz gözəllik nümunəsi kimi yaratdığı Şirinin öz əri Xosrovun cənazəsi üstündə fədakarlıqla can verdiyini təsvir edərkən, sözü öz sevimli xanımına gətirərək deyir: "O (Şirin), mənim qıpçaqlı Afaqıma bənzərdi". Bəzi tədqiqatçıların qənaətinə görə, şair Şirinlə müqayisə etdiyi qıpçaqlı həyat yoldaşının adının Afaq olduğunu bildirmişdir. Eyni zamanda, oğlu Məhəmmədin bu qadından doğulduğunu da "türküm köçdü isə də, İlahi, türk balasını Sən özün qoru" sözləri ilə bizə anladır. Şairin öğlu Məhəmmədə bəslədiyi sevginin həddi-hüdudu olmamışdır.

Dahi şairimiz Nizaminin həyatı doğulduğu Gəncə şəhərində keçib. O, təvazökarlıq və qənaətə riayət edərək zahidanə sadə bir həyat tərzilə yaşayıb. Təvazökarlıq Nizami həyatının ana xətti olub.Təvazökarlıqla eyni mənbədən gələn gözütoxluq şairə məxsus olan bir məziyyətdir. Onun nəzərində hər bir adam ancaq öz gözütoxluğu ilə əsl böyüklüyünü tapır və yalnız xalqa möhtac olmadıqca azadlığın həqiqi zövqünü dadır. Nizami Gəncəvi dövrünün şairlərindən fərqli olaraq hökmdarların qapılarından uzaqlaşıb təvazökar bir həyat tərzində yaşayıb. Dünya şöhrətli şair bu hərəkətin hikmətini belə şərh edir: "Padşahın verdiyi maaşdan imtina et, bundan gələcək şey bədbəxtlik və avaralıqdan ibarətdir. Padşahla oturub-durmaqdan çəkin, çünki bu pambıqla odun münasibətinə bənzər. Od nə qədər parlaq olsa da, salamatlıq oddan uzaqlarda olar. Pərvanə şamın işığına can ataraq ona yaxınlaşdıqda yanar."

Dahi şair "İskəndərnamə" də öz vəziyyətini təsvir edərkən bildirir ki, o, "Allaha sığınmaqdan başqa qayğısı olmayan bir mütəfəkkirdir" və sonra özünü məşhur yunan filosofu Sokrata bənzədir. İnzivada yaşayan şair ona göstərilən ehtiram və etibarın səbəbini yenə Sokratın cümləsi ilə şərh edir: "İnsanlar onlardan qaçanlara daha çox meyl edərlər."

Nizami Gəncəvi beş böyük məsnəvisindən birincisini – "Məxzənül-əsrar" ı 1160-cı ildə yazıb. O zaman şair 20 yaşında olub. "Məxzən" onun ilk əsəri deyildir. O vaxtlarda şair sufiyanə qəsidələri, qəzəlləri və başqa şeirləri ilə artıq yaxşı tanınan bir sənətkar idi. Son böyük əsəri olan "İskəndərnamə" ni 1201-ci ildə yazıb. Bu tarixdən dörd və ya beş il sonra təsvir etdiyi bütün qəhrəmanları kimi o da kədərli bir aqibətə uğrayıb. İskəndərin və onun ətrafındakı yunan filosoflarının ölümünü bir-bir təsvir edən şair öz ölümünü də təsəvvür edib və: "Onlar yuxuya getdikləri kimi Nizami də yatdı", - deyibdir. Bu tarixi insanımız ömrünün yarım əsrlik bir qismini sənət, hikmət və insanları düz yola sövq etməyə sərf edib. Nəhayət, öz sözləri ilə desək, 1209-cu ildə o, "müvəqqəti qəlbini tərk edərək əbədiyyətə qovuşub".

Beləliklə, dünyanın ölməzləri sırasına girən Nizami, həyatında arzu etdiyi kimi, ömrünün sonuna qədər özünə sadiq qalan şəxsiyyəti ürfan əhlinin mənəvi ziyarətgahı olub.

## Xəmsə

*Sirlər xəzinəsi*

Sirlər xəzinəsi Nizami Gəncəvinin ilk iri həcmli əsəridir . Yaxın və Orta Şərq ədəbiyyatında didaktik poema janrının ən qiymətli nümunələrindən biri olan bu əsər şairin yaradıcılığında epik şeir sahəsində ilk qələm təcrübəsi idi. Əsər hicri tarixilə 570-ci ildə yazılmışdır ki, miladi təqvimilə 1174-1175-ci illərə uyğun gəlir. "Sirlər Xəzinəsi" zahirən Nizamiyə qədər Yaxın və Orta Şərq ədəbiyyatında geniş yayılan didaktik əsərlər silsiləsinə daxildir. Mövzuca, məqsədcə müəyyən dərəcədə "Kəlilə və Dimnə", "Qutadqu bilik", "Hədiqətül-həqiqə", "Siyasətnamə", "Qabusnamə", "Cəhar məqalə" və sair kimi əsərlərə yaxın olan "Sirlər Xəzinəsi" həm də onlardan fərqlənir. Nizami sanki özünəqədərki didaktik ədəbiyyatı yekunlaşdırıb ona daha yüksək humanist və demokratik istiqamət vermişdir.

Nizami Gəncəvi "Sirlər Xəzinəsi" ni yazarkən özünə qədər şərq ədəbiyyatında sabitləşmiş bir sıra ənənələri təkmilləşdirərək orijinal mövqedən çıxış etmişdir. Həmin cəhət birinci dəfə hind alimi Ə.A.Əhmədin diqqətini cəlb etmişdir. O, qeyd edir: "Xacə Nizami Gəncəvi qədim üslubu dəyişərək məsnəvi deməkdə yeni bir tərz ixtira edib, sözü bəzəmiş və birinci olaraq o, bu nazik, çətin yolla getməklə namünasib sözün xoşagəlməz, daş-kəsəkli və bəyənilməz qafiyələri bu yoldan təmizləyərək, şeir mülkünü nizama salmışdır. Nizami "Sirlər Xəzinəsi" ndə əsas mətləbə başlamazdan əvvəl tövhid, nət, merac, əsərin ithaf edildiyi şəxsə xitab, kitabın yazılması səbəbi və sonda xətmi-kitab, habelə hər bir nəzəri məqalətə aid yalnız bir didaktik hekayə vermək kimi formaları ədəbiyyata gətirməklə didaktik poema janrını forma cəhətdən təkmilləşdirmişdir. Nizami xəmsəsində külli miqdarda atalar sözlərindən, zərbi-məsəllərdən, aforizm və idiomatik ifadələrdən istifadə etmiş və öz əsərinin bədii dəyərini artırmışdır. Həm də onun xalq yaradıcılığından, folklordan

aldığı ifadələr, əsasən Azərbaycan xalqı ilə bağlı olmuşdur. Elə buna görə də, Azərbaycan xalqının adət və ənənələrini, dil və ifadə xüsusiyyətlərini bilmədən "Sirlər xəzinəsi" ndə aforizm və zərbi-məsəllərlə ifadə edilmiş dərin mənanı tamamilə qavramaq qeyri-mümkündür. Y.E. Bertels "Sirlər Xəzinəsi" nin bədii dilindən danışarkən göstərir ki, şair bu əsərində bədii sözün bütün həqiqi və məcazi mənalarından istifadə edir. Buna görə də, "Sirlər Xəzinəsi" ni dərindən başa düşmək üçün hərtərəfli, universal biliyə malik olmaq lazımdır. Həmid Araslı "Sirlər Xəzinəsi" nin əsas ideya və mövzusunun ədalət və əmək mövzusu olduğunu, ümumiyyətlə bu mövzuda dövrün mühüm ictimai-siyasi və əxlaqi məsəllərinin öz əksini tapdığını qeyd edir. Y.E.Bertels "Sirlər Xəzinəsi" nin mövzusundan danışdıqda əsərin əsasında şairin ədalət və əmək haqqında fikirləri, verilən sözün üstündə durmaq, rəhmli olmaq, qızıla nifrət, həqiqi dostluq kimi əxlaqi məsələlərin durduğunu göstərmişdir. F.Qasımzadə "Sirlər Xəzinəsi" nin ayrı-ayrı məqalələrində qoyulmuş mövzu və ideyaları əsasən ədalət, əmək və əxlaq kimi üç istiqamətdə qruplaşdırıb təhlil etməyin mümkün olduğunu qeyd edir.

*Xosrov və Şirin*

Xosrov və Şirin Nizami Gəncəvinin ikinci poemasıdır. Əsər 1180-ci ildə fars dilində yazılmışdır. Nizami Gəncəvi, bu əsəri Atabəy Şəmsəddin Məhəmməd Cahan Pəhləvan Eldəgizə (1173–1186) ithaf etmişdir. Əsərdə Cahan Pəhləvandan başqa, Toğrul ibn-Arslan Səlcuqi (1178–1194) və Qızıl Arslanın (1186–1191) da adları çəkilir. Əsərin süjetinin əsasında Sasani şahı II Xosrov Pərviz (590-628) və onun həyat yoldaşlarından biri olan Şirin haqqında şərqdə geniş yayılmış "Xosrov və Şirin" əfsanəsi durur.

*Leyli və Məcnun*

Leyli və Məcnun Nizami Gəncəvinin üçüncü poemasıdır. Leyli və Məcnun özünün ideya və məzmununa görə "Xəmsə" yə daxil olan digər poemalardan bütünlüklə fərqlənən orijinal bir əsərdir. Nizami "Leyli və Məcnun" poemasında insanın mənəvi əsarətinə və məhəbbətin faciəsinə səbəb olan ictimai-dini ziddiyyətləti tənqid etmişdir. "Leyli və Məcnun" da ideya və məzmun iki əsas ədəbi istiqamətdə qurulmuşdur. Birinci halda Nizami iki gəncin faciəli məhəbbətini ictimai-dini şəraitlə əlaqələndirir. Əsərin bu hissəsində orta əsr həyat həqiqətlərinin güclü ifadəsi müşahidə edilir. İkinci halda isə, mövcud ictimai mühitdə insan səadətinin qeyri-mümkünlüyü fonunda yalnız maddi aləmi seyr edib ruhani aləmdəki əbədi gözələ qovuşmaq yolu ilə xoşbəxtliyə çatmağın mümkünlüyü göstərilir.

*Yeddi gözəl*

Yeddi gözəl Nizami Gəncəvinin dördüncü poemasıdır. Əsər 1197-ci ildə, fars dilində yazılmışdır. Nizami bu poemanı Ağsunqurlar sülaləsindən olan Marağa hakimi Əlaəddin Körpə Arslana həsr etmişdir. Poemanın adını hərfi şəkildə həm "Yeddi Portret", həm də "Yeddi Gözəl" kimi tərcümə etmək olar. Əsərin adında metaforizm vardır. Nizami bilərəkdən söz oyunu edərək, əsərə bu cür iki anlamlı ad vermişdir. Əsərin süjetinin əsasında Sasani şahı Bəhram Gur (420-439) haqqında əfsanə durur. Poemanın demək olar ki, yarısı, qədim mifologiyaya uyğun olaraq hərəsi bir planetə və ya həftənin gününə uyğun rəngli saraylarda yaşayan yeddi gözəlin hekayələrindən ibarətdir. Əruz vəzninin Xəfif bəhrində yazılan "Yeddi gözəl poeması müxtəlif hesablamalara görə 4637-5136 beytdən ibarədir. Nizami tərəfindən yazılmış hekayələr sonrakı dövrdə farsdilli ədəbiyyat, şərq ədəbiyyatı və dünya ədəbiyyatının inkişafına ciddi təsir göstərmişdir.

*İsgəndərnamə*

İsgəndərnamə Nizami Gəncəvinin beşinci və sonuncu poemasıdır. Poema 1200-1203-cü illər arasında fars dilində yazılmışdır. “İsgəndərnamə” poeması iki hissədən ibarətdir: birinci hissə “Şərəfnamə”, ikinci hissə “İqbalnamə” adlanır. “Şərəfnamə” Azərbaycan Atabəylərindən Nüsrətəddin Əbubəkr ibn Məhəmmədə, “İqbalnamə” isə Mosul hakimi Məlik İzzəddinə ithaf edilmişdir. İskəndərnamə tarixi-romantik poema olub, epopeya da adlandırıla bilər. Əsər müəllifin başqa poemaları, xüsusilə məhəbbət dastanlarından fərqlənməklə, Nizaminin həcmcə ən böyük əsəri olub 10460 beyti əhatə edir. Əsərin 6835 beyti Şərəfnamədə, 3625 beyti isə İqbalnamədə cəmlənmişdir. Şair bu əsərdə ictimai-siyasi hadisələri fəlsəfi və bədii lövhələrlə işıqlandırmışdır. Poemada elmi-fəlsəfi məzmun yüksək bədii forma ilə birlikdə verilir ki, burada Nizami qələminin gücü özünü göstərir. M.F.Axundov Nizami İskəndərnaməsini “həm məzmun gözəlliyinə, həm də ifadə gözəlliyinə malik olan nəzm” adlandırır. Firudin bəy Köçərli isə qeyd edir ki, Nizami kimi “fəsih, rəvan təb və şirin zəban şair dünya üzünə az gəlibdir.” Ə.Abbasov qeyd edir ki, “İsgəndərnamə əzmun (bəzi sahələrdə) və forma cəhətdən Nizami yaradıcılığında müstəsna mövqe tutmaqla yanaşı, şairin başqa poemalarından üstünlük təşkil edir.”

XIX əsrdən başlayaraq Nizaminin başqa əsərləri ilə yanaşı “İsgəndərnamə” poeması da Avropada tanınmağa başlayır. Məşhur şərqşünas Hammer “İsgəndərnamə” dən 100-ə qədər beyti alman dilinə tərcümə edir. “İsgəndərnamə” Nizami Gəncəvinin poemaları arasında elmi-tənqidi mətni olan ilk əsərdir. Akademik Ə.Əlizadə və F. Babayev tərəfindən hazırlanmış bu nəşr dünyanın müxtəlif kitabxanalarında saxlanılan ən qədim on əlyazma əsasında tərtib edilmişdir.

**Lirikası**

*Farsca divanı*

Mənbələrdə Nizami divanının 20.000 beytə yaxın olduğu göstərilsə də, onun çox kiçik bir hissəsi dövrümüzə çatmışdır. Bütün yaradıcılığı boyunca Nizami epik əsərlərində Divanını xatırlatmış, lirik şeirləri və qəzəlləri ilə fəxr etmişdir. Şair qəzəllərindən birinin sonunda, Şirvanşah I Axsitanı öz divanının sahibi adlandırır. Nizaminin lirik irsindən əldə olan nümunələr klassik şərq şeirinin ancaq üç şəklini – qəsidə, qəzəl və rübai şəkillərini əhatə edir. Bu nümunələr şairin zəngin lirik irsinin çox az bir hissəsini təşkil etsə də, onlar sənətkarın lirik yaradıcılığının ümumi ideya istiqaməti, bədii xüsusiyyətləri haqqında danışmağa, müəyyən elmi nəticələrə gəlməyə imkan vermişdir. Bu əsərlər göstərir ki, insan, onun həyatı, taleyi, arzu və istəkləri Nizami lirikasının əsas mövzusu olmuşdur.

Nizami divanının öyrənilməsi daha gec başlanılsa da, şairin divanı haqqında hələ təzkirə müəllifləri müəyyən fikirlər söyləmişlər. Divanın bəzi hissələri müxtəlif orta əsr cüng və təzkirələrində yaşamışdır. Nizami divanının əldə edilmiş hissələri göstərir ki, o, özündən əvvəl yazıb-yaratmış Rudəki, Nasir Xosrov Qubadyani, Sənai, Ənvəri, Qətran Təbrizi və Xaqani kimi şairlərin mütərəqqi ənənələrini davam və inkişaf etdirmiş, poeziyanı həyata, insanın arzu və əməllərinə yaxınlaşdırmışdır.

*Türkcə divanı*

2013-cü ildə Zəncan Universitetinin professoru, azərbaycanlı alim Hüseyn Türksoy Misirin Xədəviyyə kitabxanasında, Nizami qovluğunda Nizami Gəncəviyə aid olduğu iddia edilən azərbaycanca-türkcə divan nüsxəsi tapmışdır. Prof. Sənan İbrahimov divana ön söz yazaraq, onu transliterasiya edib, nəşr etdirmişdir.

### *Dünya səviyyəsində tanınması*

20 Aprel 2012-ci ildə İtaliyanın paytaxtı Roma şəhərində Heydər Əliyev Fondunun dəstəyi və Azərbaycanın İtaliyadakı səfirliyinin iştirakı ilə Roma şəhərindəki məşhur "Villa Borghese" parkında Nizami Gəncəvinin abidəsinin açılışı olub. Abidənin açılışında Neapol Şərqşünaslıq Universitetinin professoru Mineli Bernardini çıxış edərək Nizami Gəncəvinin yaradıcılığını yüksək qiymətləndirib və Azərbaycanın Gəncə şəhərində dünyaya göz açan dahi şairin əsərlərini bütün dövrlər üçün əvəzsiz xəzinə adlandırıb. Professor bildirmişdir ki, dahi Nizaminin yaradıcılığı Azərbaycan xalqına xidmət etməklə yanaşı, digər xalqlar üçün də böyük əhəmiyyət daşıyır. "Nizamini İtaliyada da yaxşı tanıyırlar", - deyən alim xalqımızın dahi oğlunun əsərlərinin italyan dilinə tərcümə edildiyini və sevildiyini, onun bütün yaradıcılığının bəşəri əhəmiyyət daşıdığını diqqətə çatdırib.

### *Şeirləri əsasında musiqi əsərləri*

Elmira Şahtaxtinskaya – Nizaminin portreti
Romanslar
Bülbül – musiqi: Üzeyir Hacıbəyov
Müslüm Maqomayev – Sənsiz – musiqi: Üzeyir Hacıbəyov
Yaşar Səfərov – Gülüm – musiqi: Fikrət Əmirov
Bülbül – Gül camalın – musiqi: Cahangir Cahangirov
Qəzəl (xor üçün). musiqi: Cahangir Cahangirov
Gözün aydın gözümə. musiqi: Tofiq Quliyev
Qəzəl. musiqi: İzzət Əliyeva
Qəzəl. musiqi: Hökümə Nəcəfova
Yarım gəldi. musiqi: Hökümə Nəcəfova
Mobil Əhmədov – Tez gəl. musiqi: Hökümə Nəcəfova
Nə lazım. musiqi: Ağabacı Rzayeva

Könlüm. musiqi: Ağabacı Rzayeva, Firəngiz Əlizadə
Cahanda. musiqi: Şəfiqə Axundova
Şövkət Ələkbərova – Necə səbr etsin. musiqi: Şəfiqə Axundova
Nə gözəl. musiqi: Şəfiqə Axundova
Vəslin həvəsi. musiqi: Ədilə Hüseynzadə
Sərvi xuramanım mənim. musiqi: Süleyman Ələsgərov
Lütfiyar İmanov – Ey gözüm. musiqi: Qəmbər Hüseynli
Nizami oratoriyası. musiqi: Ramiz Mustafayev
Payız (xor üçün). musiqi: Qara Qarayev
Ey gül (xor üçün). musiqi: Cövdət Hacıyev
"Qəzəl" (soprano və simfonik orkestr üçün). musiqi: Məmməd Quliyev
"Lirik poema" (soprano, 2 fleyta, fortepiano və simli orkestr üçün). musiqi: Məmməd Quliyev

Muğamlar

Gülağa Məmmədov – "Yenə tövbə evimə" təsnif
Gülağa Məmmədov – "Gözün aydın gözümə" təsnif

Operalar

Xosrov və Şirin (opera) – musiqi: Niyazi

Simfonik əsərlər

"Bəhram Gur" simfonik poeması – musiqi: Midhət Əhmədov
Leyli və Məcnun (balet) – musiqi: Qara Qarayev
Yeddi gözəl (balet) – musiqi: Qara Qarayev

Nizamiyə ithaf

Nizami (opera) – musiqi: Əfrasiyab Bədəlbəyli
Nizami (balet) – musiqi: Fikrət Əmirov
VII Simfoniya (1993) – "Xəmsədən damlalar" – musiqi: Məmməd Quliyev
"Nizami haqqında dastan" oratoriya – qarışiq xor üçün – a capella – musiqi: Məmməd Quliyev, sözləri: Ələkbər Salahzadə

Haqqında olan ədəbiyyat

Babayeva T. Nizami Gəncəvinin ədəbi irsində şəxsiyyət problemi. Bakı: 2000, 200 s.
Kərimli T. Nizami və tarix. Bakı: Elm, 2002, 241 s.
Əlibəyzadə E. Nizami və tariximiz. Bakı: 2004, 186 s.
Rzasoy S. Nizami poeziyası: Mif-tarix konteksti. Bakı: Ağrıdağ, 2003, 212 s.
Arzumanlı V. Nizami Gəncəvinin dünya şöhrəti. Bakı: Qartal, 1997.
Əhmədov Ə. Nizami-Elmşünaslıq. Bakı: 2001, 254 s.
Məmmədov C. Nizami Gəncəvinin vətəni və milliyyəti ilə əlaqədar bir sira mübahisəli məsələlərə dair/ Sankt-Peterburq universitetinin "Xəbərləri". Seriya 13, buraxılış 1. Sankt-Peterburq, 2010. Səhifə. 106–116

## Kamillik zirvəsində dayanan dahi-Nizami Gəncəvi

Pandemiya ilə əlaqədar olaraq Azərbaycanın böyük şairi Nizami Gəncəvinin 880-illik yubileyi və eləcə də "Nizami İli" elan olunması münasibəti ilə bir çox təhsil ocaqlarında, eləcə də kitabxanalarda şairimizin yaradıcılığı ilə bağlı tədbirlərin virtual şəkildə keçirilməsi nəzərdə tutulmuşdur. İndi isə gəlin Nizami Gəncəvinin yubileyi münasibətilə kitabxanalarda təşkil olunacaq virtual sərgilər haqqında danışaq. Virtual kitab sərgisi onlayn platformada şagirdlərin maraqlarına uyğun olaraq virtual rejimdə bütün respublika kitabxanalarının və kitabxanaçılarının ixtiyarına verilir. Müasir dövrün tələbi olan virtual kitab sərgiləri hazırlamaq ən təsirli vasitələrdən biri hesab olunur. Virtual kitab sərgisini hazırlayan zaman həm kitabxananın fondunda olan sənədlərdən, həm də elektron resurslardan istifadə etmək tövsiyə olunur. Bunun üçün ilk növbədə slaydlar hazırlanmalıdır. Kitabxanalarda Nizami Gəncəvidən bəhs edən ədəbiyyatların təbliği istiqamətində təşkil oluna biləcək virtual sərgilər: *"Şərqin ilham çeşməsi", "Kamillik zirvəsində dayanan*

*dahi-Nizami", "Azərbaycanın dahi şairi-Nizami", "Eşqin ilahi şairi Nizami Gəncəvi", "Nizaminin bilik dünyası", "Nizami yaradıcılığında azərbaycançılığın təməli", "Bədii sözün tanrısı", "Ucalmaq istəsən, bir kamala çat, Kamala ehtiram göstərər həyat", "Şərqin sönməyən günəşi", "Əsrlərin sönməz məşəli", "Mütəfəkkir, sənətkar ", "Şairin sirli-sehirli aləmi"* və s. başlıqlar altında nümayiş oluna bilər.

























F.Köçərli adına Respublika Uşaq Kitabxanasının saytına daxil olub Nizami Gəncəvinin kitablarının elektron variantından istifadə etmək olar. Linkləri sizə təqdim edirik http://clb.az/azrbaycan-dilind_k106.html
https://drive.google.com/file/d/1URDAAg1b6kby7A_tCOe1VcIzNVG2D04O/view
https://drive.google.com/file/d/1F6cH5i8n1PxbzhFpV_vDg9U9B12ojR-B/view
https://drive.google.com/file/d/1Nd-xycaqRFiSfRoqdTWUR1051mtvI7uZ/view
https://drive.google.com/file/d/1-YBXJ4m84jLGJPXttUIlY7jA0EJEiVVx/view
https://drive.google.com/file/d/1NW-FJejpgDj02ES7Q5FB_oiASDncH-K-/view
https://drive.google.com/file/d/143cNBwhSeOROEluNblYv9n90LOVG75lG/view
https://drive.google.com/file/d/1IErz9hlJ4TJgUl-Hd08nD4eQvgyT_l6D/view
https://drive.google.com/file/d/1zelF_FbSo9XXhnvv-nUi-70cb2hCbSMp/view
https://drive.google.com/file/d/1ovwxN9xUgCxI8GshuRk6sPwAvuDlmqYB/view
https://drive.google.com/file/d/1uEmO5dXNp8LiU5WeDmK3Y8-E6lhU1aBi/view
https://drive.google.com/file/d/12wjMeRyJF3D8WMecXzvd4BjRgG7jmSEj/view
https://drive.google.com/file/d/1GvJXKGNKdnA2IIgiTuXz00EfQaJu0OpN/view
https://drive.google.com/file/d/1wBHcITD0kp2p3FemRg1cLYiAl4D4ceT4/view
https://drive.google.com/file/d/13tIr05d3mUZZms9LswFKa1vKpCyZXkUy/view

## Görkəmli şəxsiyyətlərin Nizami Gəncəvi haqqında söylədikləri fikirlər:

Azərbaycana, Azərbaycan xalqına təkcə Nizami Gəncəvi kimi dahi bir şəxsiyyət bağışladığına görə Gəncə torpağı, Gəncə xalqı, gəncəlilər əbədi minnətdarlığa layiqdirlər.

**Heydər Əliyev,**
*Ümummilli lider*

Nizami Gəncəvi ümumbəşəri mahiyyət daşıyan, ecazkar poetik qüvvəyə malik yaradıcılığı ilə Şərq bədii təfəkkürünü elmi fəlsəfi fikirlərlə zənginləşdirmiş və şeiriyyəti görünməmiş yüksəkliklərə qaldırmışdır. Mütəfəkkir şairin məşhur "Xəmsə" si insanlığın mənəvi sərvətlər axtarışının zirvəsində dayanaraq, dünya ədəbiyyatının şah əsərləri sırasında layiqli yer tutur....

**İlham Əliyev,**
*Azərbaycan Respublikasının Prezidenti*

Nizami bir fildir, yox bərabəri,
Söz incisi ondan aldı dəyəri,
Gəncədə olsa da aramı onun,
Xəzinələr üstədir məqamı onun.

**Əlişir Nəvai,**
*özbək əsilli şair, filosof*

Sənsən əbədiyyət dediyim sevgili dildar,
Daşlarda, çiçəklərdə, ürəklərdə adın var.
Aydanmı, günəşdənmi yarandın, de nədən sən?
Xalqın gözü də, qəlbi də, vicdanı da sənsən!

**Səməd Vurğun,**
*xalq şairi*

Şeyx Nizami böyük şairlərdən birisi olub. Onun kimi fəsih, rəvantəb və şirinzəban şair dünya üzərinə az gəlibdir. Heç bir şair o lətafət və zəriflikdə söz deməyibdir...

**Firidun bəy Köçərli,**
*ədəbiyyatşünas, alim*

Azərbaycan xalqının şərəfi və iftixarı olan Nizami Gəncəvi dünya ədəbiyyatında elə nəhəng simalardan biridir ki, onun yaradıcılığı bəşəriyyətin bədii təfəkkür salnaməsinin qızıl fonduna daxildir.

**Mirzə İbrahimov,**
*dramaturq, ictimai xadim*

Həkimi-mənəvi Şeyx Nizami Gəncəvinin böyüklüyünü və fəzilətlərini söyləməkdə dil acizdir. Zərifliyi, söz və söhbətilə məclis bəzəməkdə, ümumun rəyincə onun misli olmamışdır.

**Abbasqulu ağa Bakıxanov,**
*yazıçı,mütəfəkkir*

Nizaminin bilik və kamalda böyüklüyü o dərəcədədir ki, yazmaqda qələm, söyləməkdə dil acizdir. Onun sözündə şirinlik, məlahət və gözəllik var. Odur ki, kamal sahibləri onu sevirlər.

**Dövlətşah Səmərqəndi,**
*təzkirəçi, ədəbiyyatşünas*

Dahi Azərbaycan şairi Nizami Gəncəvinin 880 illik yubileyi münasibətilə aşağı sinif şagirdləri ilə metodist ZOOM proqramı ilə **virtual görüş** təşkil edərək oxucuları dahi şairin yaradıcılığı ilə yaxından tanış edə bilər. Virtual görüş zamanı Mədəniyyət Nazirliyinin dəstəyi, F.Köçərli adına Respublika Uşaq Kitabxanasının təşkilatçılığı ilə "Bərpanəşr" layihəsi çərçivəsində Nizami Gəncəvinin poemaları əsasında uşaqlar üçün nəşr olunmuş kitabların təqdimatı keçirilir. Söhbət zamanı metodist qeyd edir ki, nümayiş olunan kitablar ötən əsrin əvvəllərindən 80-ci illərədək olan dövrdə çap olunan və kitabxananın qızıl fondunda saxlanılan əsərlərdir. Bu nəşrlərə yenidən həyat vermək uşaqların dünyagörüşünün və həyata baxışlarının daha yaxşı formalaşması üçün xüsusi əhəmiyyətə malikdir. Məktəblilər Nizami Gəncəvinin "Xeyir və Şər", "Simnar", "Şah və xidmətçi", "İsgəndərin Bərdəyə gəlməsi və Nüşabə ilə görüşməsi", "Türküstan gözəlinin hekayəti", "Fitnə", "İlin fəsilləri", "Nuşirəvanla vəziri və bayquşların söhbəti", "Kərpickəsən", "Fitnə və Bəhram şah", "Mahanın nağılı" kitabları ilə yaxından tanış olub, onları maraqlandıran suallarla metodistə müraciət edirlər. Bu kitablar VİDEO-PDF formatda xüsusi qayğıya ehtiyacı olan oxucuların da istifadəsinə verilmişdir.

**Nizami Gəncəvi - Nuşirəvanla vəziri və bayquşların söhbəti**




Farscadan tərcümə edənlər: S. Rüstəmov, A. Sarovlu Rəssamı: Arif Hüseynov Redaktoru: Məmməd Namaz;

Nizami Gəncəvi. N 65 Nuşirəvanla vəziri və bayquşların söhbəti. B.: Gənclik, 1989 – 12 səh.

Təkrar çap zamanı ilk nəşrin kitab göstəriciləri olduğu kimi saxlanılmışdır.Bu kitab kiçik yaşlı məktəblilər üçün nəzərdə tutulmuşdur.

https://drive.google.com/file/d/1Y6G6aH3gnnFag8g2OwWDAqjp0NAU_BSb/view

**Nizami Gəncəvi - İsgəndərin Bərdəyə gəlməsi və Nüşabə ilə görüşməsi**




İsgəndərin Bərdəyə gəlməsi və Nüşabə ilə görüşməsi / Nizami Gəncəvi; tərc.ed. A.Şaiq; rəs. A.Hacıyev; red. M.Namaz; tex.red. L.Qarayeva ; korrekt. D.Məlikova - Bakı : Gənclik, 1989. - 28 s. "Bərpa-nəşr" Təkrar çap zamanı ilk nəşrin kitab göstəriciləri olduğu kimi saxlanılmışdır.Bu kitab kiçik yaşlı məktəblilər üçün nəzərdə tutulmuşdur.

https://drive.google.com/file/d/1Y6G6aH3gnnFag8g2OwWDAqjp0NAU_BSb/view?usp=sharing

**Nizami Gəncəvi-Xeyir və Şər - VİDEO-PDF**




Xeyir və Şər / Nizami Gəncəvi ; rəs. N. Məmmədov ; red. Mir Cəlal. - Bakı : Gənclik, 1976. - 20 s.- kiril əlifbası ilə."Bərpa-nəşr"

Xeyir və Şər / Nizami Gəncəvi; burax. məs. Ş.Qəmbərova; red. Z.Dadaşova; Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi. F.Köçərli adına Respublika Uşaq Kitabxanası - Bakı : "Nağıl Evi N", 2016.-20 s. Təkrar çap zamanı ilk nəşrin kitab göstəriciləri olduğu kimi saxlanılmışdır.

https://www.clb.az/n-gncvi-xeyir-v-r-vdeo-pdf_d569.html

**N.Gəncəvi-Simnar - VİDEO-PDF**




Simnar / Nizami Gəncəvi; red. R. Şıxəmirova; rəs. O. Sadıqzadə. - Bakı : Azərnəşr, 1964. - 14 s ; kiril əlifbası ilə. "Bərpa-nəşr"

Simnar / Nizami Gəncəvi ; burax. məs. Ş.Qəmbərova ; red. Z.Dadaşova ; Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi. F.Köçərli adına Respublika Uşaq Kitabxanası - Bakı : "Nağıl Evi N", 2016.-14 s. Təkrar çap zamanı ilk nəşrin kitab göstəriciləri olduğu kimi saxlanılmışdır. Əsər zəhmətkeş və istedadlı bənna Simnardan bəhs edir.

https://www.youtube.com/watch?v=DKZ2HFFVEjs

**Nizami Gəncəvi -Türküstan gözəlinin hekayəti**




Türküstan gözəlinin hekayəti / Nizami Gəncəvi;red. Zülfüqar Şahsevənli. Bədii redaktoru: N. Rəhimov. Texniki redaktoru: N. Süleymanov. Korrektoru: R. Qasımova.Fars dilindən tərcümə edəni və uşaqlar üçün işləyəni Abbasəli Sarovlu http://bookcollector.az/file/pic/xeber//2018-04/1523653983_turkustan-gozali.pdf

**Nizami Gəncəvi-Şah və xidmətçi**




Şah və xidmətçi / Nizami Gəncəvi ; red. M.Namaz ; tex.red. N.Süleymanov ; korrekt. X.Səfərova ; rəs. N.Məmmədov - Bakı : Gənclik, 1981. - 16 s. "Bərpa-nəşr"

Şah və xidmətçi / Nizami Gəncəvi ; burax. məs. A.Cəfərov, Ş.Qəmbərova ; red. Z.Dadaşova , S.Səmədova ; dizayn. V.Ağamirzəyeva , E.Səfərəliyeva ; Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi. F.Köçərli adına Respublika Uşaq Kitabxanası - Bakı : "Renessans-A", 2017.- 16 s.

https://www.clb.az/dosyalar/1407.pdf

**Nizami Gəncəvi -İlin fəsilləri**




İlin fəsilləri / Nizami Gəncəvi red. İlyas Tapdıq; tex.red S.Həbibzadə; korrektor X.Novruzov; rəssam Ələşrəf; Bakı-2016 -14 s. Bərpa-nəşr"Təkrar çap zamanı ilk nəşrin kitab göstəriciləri olduğu kimi saxlanılmışdır.Nizami Gəncəvinin yazdığı bu nağıl kiçik yaşlı uşaqlar üçün nəzərdə tutulmuşdur.

https://drive.google.com/file/d/1lJALeeJyyv6Z08C3o8R6sGNsqeSNgLOe/view?usp=sharing

**Nizami Gəncəvi-Kərpickəsən**




Kərpickəsən/ Nizami Gəncəvi ; uşaqlar üçün işləyən. M.C.Paşayev ; rəs. Elmaz ; red. G.Həsənzadə ; korrekt. T.Cəfərova - Bakı : Azərnəşr, 1969. - 12 s."Bərpa-nəşr"

Kərpickəsən/ Nizami Gəncəvi ; burax. məs. A.Cəfərov, Ş.Qəmbərova; red. Z.Dadaşova, S.Səmədova; dizayn. V.Ağamirzəyeva , E.Səfərəliyeva ; Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi. F.Köçərli adına Respublika Uşaq Kitabxanası - Bakı : "Renessans-A", 2017.- 12 s.Təkrar çap zamanı ilk nəşrin kitab göstəriciləri olduğu kimi saxlanılmışdır. Əsərdəki qoca, yaşlı bir kişinin kərpic kəsərək öz əməyi və zəhməti ilə çörək pulunu qazanması, başqalarına əl açmaqdan daha üstün tutulur. Cavan bir oğlanın kənardan buna diqqət yetirib, onun əziyyətinə qatlaşması qocaya acıması kimi səciyyələnir.
http://anl.az/new/upload/File/berpa/berpa-33-file.pdf

## Nizami Gəncəvi - Xarəzm gözəlinin hekayəti




Nizami Gəncəvi - Xarəzm gözəlinin hekayəti / Nizami Gəncəvi ; red. Z. Şahsevənli ; fars dilindən tərc.ed., uşaqlar üçün işləyəni. A. Sarovlu - Bakı : Gənclik, 1984. - 12 s."Bərpa-nəşr" Nizami Gəncəvi. Xarəzm gözəlinin hekayəti / Nizami Gəncəvi ; burax. məs. A.Cəfərov, Ş.Qəmbərova ; red. Z.Dadaşova , V.Ağamirzəyeva ; Azərb. Resp. Mədəniyyət Nazirliyi. F.Köçərli adına Respublika Uşaq Kitabxanası - Bakı : "Bərpanəşr", 2019. – 12 s. Təkrar çap zamanı ilk nəşrin kitab göstəriciləri olduğu kimi saxlanılmışdır.Kitab kiçik yaşlı məktəblilər üçün nəzərdə tutulmuşdur.
https://drive.google.com/file/d/1Ngl4MVRF9q6BMFYN2cjUNhV5Zi6Bq9P9/view

## Nizami Gəncəvi- Bizans gözəlinin hekayəti




Nizami Gəncəvi.Bizans gözəlinin hekayəti : сказки / N. Gəncəvi ; burax. məs. A.Cəfərov, Ş.Qəmbərova ; red.: Z. Dadaşova [et al.] ; dizayn E. Səfərəliyeva. - Bakı : Renessans, 2020.

Bu kitab kiçik yaşlı məktəblilər üçün nəzərdə tutulmuşdur.

https://drive.google.com/file/d/1nrtXp0sWNEUbEay5FfcTSaBurcBOGo99/view

## Nizami Gəncəvi - Məğrib gözəlinin hekayəti




Nizami Gəncəvi - Məğrib gözəlinin hekayəti**:** Buraxılışa məsul A.Cəfərov; Ş.Qəmbərova; Ə.Əsədzadə. Fars dilindən tərcümə edən və uşaqlar üçün işləyən Abbasəli Sarovlu; red.: Z. Dadaşova [et al.] ; dizayn E. Səfərəliyeva. - Bakı : Renessans, 2020. Bu kitab kiçik yaşlı məktəblilər üçün nəzərdə tutulmuşdur.

https://drive.google.com/file/d/1VO8lw48J1MP1CtdCP9O1mTxNiioBuyG1/view

## Nizami Gəncəvi - Slavyan gözəlinin hekayəti




**Nizami Gəncəvi. Slavyan gözəlinin hekayəti** / Nizami Gəncəvi ; red. M. Aslan ; rəs. S. Şatikov - Bakı : Gənclik, 1986. - 8 s. **"Bərpa-nəşr"** Nizami Gəncəvi. Slavyan gözəlinin hekayəti / Nizami Gəncəvi; burax. məs. A.Cəfərov, Ş.Qəmbərova; red. Z.Dadaşova, V.Ağamirzəyeva ; Azərb. Resp. Mədəniyyət Nazirliyi. F.Köçərli adına Respublika Uşaq Kitabxanası - Bakı : "Bərpanəşr", 2019. – 8 s. Təkrar çap zamanı ilk nəşrin kitab göstəriciləri olduğu kimi saxlanılmışdır. Kitab kiçik yaşlı məktəblilər üçün nəzərdə tutulmuşdur.

https://drive.google.com/…/11lFBHtJ2S86A2JgVFqv_s8xdFY…/view

*Tədbirin sonunda məktəblilər dahi Nizami Gəncəvinin "Sirlər xəzinəsi" poeması əsasında Kərpic kəsən kişinin hekayətini virtual olaraq səhnələşdirirlər.*
*https://www.youtube.com/watch?v=cyubW6LrK_g*

***I İştirakçı:*** Şam şəhərində qoca bir kişi yaşayırdı. Palçıqdan kərpic kəsib satmaqla dolanırdı. Öz işinin mahir ustası idi. Onun kəsdiyi kərpiclər çox möhkəm olurdu. Bir sözlə, qoca olsa da, çörəyini minnətsiz qazanırdı. Geyməyə bir şey tapmayanda yaşıl otlardan özünə köynək toxuyurdu. Qızmar bir yay günündə kərpickəsən qoca tərini silə-silə palçıq qarışdırırdı. Bu zaman yoldan keçən cavan bir oğlan qocanın necə əziyyət çəkdiyini görüb dedi:
***II İştirakçı:*** – Ey qoca, sən niyə belə ağır zəhmətə qatlaşırsan? Yaşlı adamsan, özünə yazığın gəlsin. Bu qədər əziyyətin qabağında qazandığın bir qarın çörəkdir. O çörəyi kimdən istəsən, səndən əsirgəməz.
***I İştirakçı:*** Qoca bir anlığa əl saxlayıb diqqətlə cavanı süzdü. Bir qədər acıqlı səslə dedi:
***III İştirakçı:*** – Deyirsən, özümə yazığım gəlsin?! Mən o zaman yazıq olaram ki, gəlib sənin qarşında bir parça çörək üçün əl açım! Bu əziyyəti ona görə çəkirəm ki, alnıaçıq, üzüağ yaşayım. Qolunda az-çox gücü olan adamın başqasına əl açması şərəfsizlikdir. Şərəfsizlik isə ölümdən betərdir.
***I İştirakçı:*** Qocanın sözləri cavana təsir etdi. O, dediklərindən peşman oldu. Şərəflə yaşayan bu qoca onun gözündə ucaldı. Hörmətli bir insana çevrildi. O, qoca kərpickəsənə ədəblə baş əydi və yoluna davam etdi.

**Onlayn disput**

Disputlar kütləvi tədbir formalarından biri kimi, müxtəlif əxlaqi problemlərə, bədii əsərlərin müzakirəsinə həsr olunur və oxucuların ideya-estetik tərbiyəsində, məntiqi təfəkkürün

inkişafında mühüm rol oynayır. Bu baxımdan məktəbyaşlı uşaqlar və yuxarı sinif şagirdləri arasında disput təşkil etmək səciyyəvidir. Disput keçirərkən mövzu müəyyənləşdirilməlidir. Məsələn, "Xeyir və Şər" hekayəsinin tərbiyəvi əhəmiyyəti. Xeyrin mənəvi keyfiyyətlərini müəyyənləşdirmək, xeyirxahlığın mahiyyətini, insan üçün yaxşı əxlaqi sifət olduğunu oxuculara aşılamaq və onlara tərbiyəvi təsir göstərmək məsləhət görülür.

- Şər Xeyirin gözlərini nə üçün çıxartdı, siz bunu necə qiymətləndirirsiniz?

- Xeyirə kömək edənlər kimlərdir?

- Xeyirin sonrakı taleyini uğurlu təsvir etməklə Nizami Gəncəvi nə demək istəmişdir?

- Siz xeyirxahlığı nədə görürsünüz? - kimi suallar ətrafında onlayn müzakirələr aparmaq və ümumi bir nəticəyə gəlmək olar. Xeyir obrazının belə bir plan əsasında xarakterizə olunması oxucuları (yuxarı sinif şagirdlərini) müstəqil mühakimə yürütməyə hazırlayır və onları əxlaqi-mənəvi keyfiyyətlərlə tərbiyələndirir. Hekayədə istifadə edilmiş misralara, ifadələrə diqqət yetirmək lazımdır. Kitabxanaçı oxucuları başa salmalıdır ki, Nizami xalq ədəbiyyatından istifadə etməklə yanaşı, öz yaradıcılığı ilə xalq ədəbiyyatına təsir etmiş, onu zənginləşdirmişdir. Şairin əsərlərində elə ifadələr, beyt və misralar var ki, bunlar bu gün dilimizdə mövcud olan atalar sözləri və məsəllərə çevrilib. Əsas məsələ bu hikmətli sözləri oxuculara çatdırmaqdan ibarətdir.

Dahi Azərbaycan şairi Nizami Gəncəvinin 880 illik yubileyi ilə əlaqədar olaraq kitabxana əməkdaşlıq etdiyi məktəblərlə birgə zoom proqramı vasitəsilə onlayn şəkildə ***şeir müsabiqəsi***

təşkil edə bilər. *"Şərqin ilham çeşməsi"* adlı şeir müsabiqəsinin ssenarisini sizə təqdim edirik. Bunun üçün məktəblilərə Nizami Gənvəvinin şeir və poemalarından müəyyən parçalar təqdim edilir. Təyin olunmuş vaxtda şagirdlər onlayn şəkildə müsabiqəyə qatılırlar. Şeir müsabiqəsini açıq elan edən kitabxanaçı Nizami Gəncəvinin yaradıcılığı haqqında qısa məlumat verir.

***Kitabxanaçı:*** Xoş naxışdır dahilər. Onlar bu dünyaya vida deyib gözlərini yumarkən belə, xalqın gözlərini açırlar. Onlar öləndən sonra belə inkişafdan, yürüşdən qalmır, yaratdıqları mənəvi sərvət sayəsində yeni-yeni ürəkləri, şüurları, ölkələri fəth edirlər. Bu mənəvi fəth heç bir vaxt dayanmır, əksinə öz hüdudlarını genişləndirir. Tarixi tərəqqinin hər hansı kəsimində, xoş və bəlalı gönlərdə biz onsuz keçinə bilmirik. Səkkiz əsri arxada qoyub doqquz əsrə nüfuz edən dahi, bu illərin kəşməkəşləri, tufanları arasından yalqız, tənha keçməyib, yaratdığı və dünya vətəndaşına çevirdiyi qəhrəmanları ilə bir sırada addımlamışdır. Adama elə gəlir ki, başı buludlara dirənmiş əfsanəvi Bisütun dağını qəlpə-qəlpə qoparıb Şirinin eşqilə süd arxı çəkən, nəfəsilə qayaları əridən qəhrəman təkcə Fərhad deyil, həm də Nizamidir. Nuşirəvanın qayğısızlığı ilə biganəliyi ucbatından ölkədə xarabalıqların artmasından sevinən bayquşların söhbətini yozan, hökmdarı ədalətli olmağa dəvət edən də əslində Nizaminin özüdür ki, bu şahı düşünməyə və bu sözləri deməyə vadar edir:

Nə vaxtacan tökəcəm, yoxsa ömrüm uzunu,
Həm xalqımın qanını, həm üzümün suyunu?!

Yanından hamının ikrahla keçib getdiyi it cəsədinin mirvari kimi dişlərini görən də İsa peyğəmbərdən daha çox Nizaminin gözləridir. Qeyri insani cəmiyyətdən qaçıb səhralara, pənah aparan Məcnunun məhəbbətə layiq bir aləm axtarışında, ərə

verildikdə belə Məcnuna eşqini qoruyub saxlayan Leylinin əbədi sədaqətində, dirilik suyu axtaran və bunu yalnız yaradıcı insan zəkasının qüdrətində tapan İsgəndərin müdrikliyində, əyninə kəfən geyib zalım şahın hüzuruna gələn və acı həqiqəti onun üzünə çırpan zahidin cəsurluğunda, ac aslanlar arasından öz qismətini, tacını götürən Bəhram şahın mərdanəliyində, susuzluqdan yanıb can verdiyi halda, sevgilisi Şirini oyatmağa qıymayan, yalnız eşq sayəsində kamala yetən Xosrovun həqiqətə böyük çətinliklər bahasında çatmasında Nizaminin qeyri-adi şəxsiyyətini , azad, xoşbəxt insan cəmiyyəti yaratmaq naminə qanad çalan ülvi xəyallarını, bəşəriyyət üçün alovlanan məşəl ürəyini görmək heç də çətin deyil.

*Kitabxanaçının dəyərli məlumatından sonra məktəblilər onlayn olaraq söyləyəcəkləri şeirlərə keçid alır. İlk olaraq birinci iştirakçı şairin "Sənsiz" adlı şeirini səsləndirir.*

Hər gecəm oldu kədər, qüssə, fəlakət sənsiz,
Hər nəfəs çəkdim, hədər getdi o saət sənsiz!

Sənin ol cəlb eyləyən vəslinə and içdim inan,
Hicrinə yandı canım, yox daha taqət sənsiz!

Başqa bir yarı necə axtarım, ey nazlı sənəm?
Bilirəm sən də dedin: "Yox yarə hacət sənsiz!"

Sən mənim qəlbimə hakim, sənə qul oldu könül,
Sən əzizsən, mən ucuz, mən heçəm, afət, sənsiz!

Nə gözüm var arayım mən səni, bəxtim də ki yox,
Nə də bir qaçmağa var məndə cəsarət sənsiz!

Sən Nizamidən əgər arxayın olsan da, gülüm,
Gecə-gündüz arayıb olmadı rahət sənsiz!

*Növbəti iştirakçı isə Nizaminin "Görünür" adlı şeirini səsləndirir.*

Gözüm aydın, gözümə surəti canan görünür,
Mişki-ənbər saçaraq, ətrlə əfşan görünür.

Allaha şükür edirəm, ey gözümün nuru, bu gün,
Yar gəlib göz önünə, sərvi-xuraman görünür.

Ayrılıq zəhrini daddım, acı da olsa, vüsal,
İki dünyaya dəyər, eylə ki, hicran görünür.

Səni bir dəfə görənlər güvənir eşqimizə,
Nə üçün gözlərin, ey dil, belə giryan görünür?

Eşqini canım ilə bəslədi birlikdə könül,
Onsuz, ey sevdiyəcəyim, can evi viran görünür.

Ey sənəm, vəslin ilə, eylə ki, şad oldu könül,
Yırtdı qəm köynəyini, gül kimi xəndan görünür.

Şadlığından alışıb yandı Nizami, dedi ki:
"Gözüm aydın, gözümə surəti canan görünür".
*Növbəti iştirakçı isə dahi Nizaminin "Atanın oğluna nəsihəti" adlı şeirini səsləndirir.*

Oğul, sözlərimə yaxşı qulaq as,
Ata nəsihəti faydasız olmaz:
Nə hiyləgər, nə də vicdanı dar ol,

Hal bilən, hal duyan bir sənətkar ol.
Bir elmi öyrənmək istədikdə sən,
Çalış ki, hər şeyi kamil biləsən.
Kamil bir palançı olsa da insan,
Yaxşıdır yarımçıq papaqçılıqdan.
Məndən söyləməkdir, səndən eşitmək:
Bir insan əliboş gəzməsin gərək.

*Növbəti iştirakçı isə istedadlı Azərbaycan şairi Nizami Gəncəvinin nin "Sultan Səncər və qarı" adlı şeirini səsləndirir.*

Zülm edib bir qarıya çox uddurmuşdular qan,
O da Sultan Səncərin tutaraq yaxasından
Dedi ki: − Səndə insaf az görmüşəm, qulaq as!
Səndən gördüyüm zülüm əsla hesaba sığmaz.
Bir kefli darğa gəlib evimdə məni söydü,
Salıb təpik altına doyunca döydü, döydü.
Mən günahsız qarının saçlarına atdı əl,
Üzü üstə sürüdü evdən çölə əlbəəl.
Camaat arasında söyüb məni qudurdu,
Evimin qapısına zülmün möhrünü vurdu.
Dedi: − Ey qozbel qarı, söylə, filan gecədə
Filankəsi kim vurdu yaşadığın küçədə?
Evimi çox axtardı: Qatil hardadır? – deyə,
Ey padşah, bu həqarət sığarmı yerə, göyə?
Darğanın sərxoşluğu olmuş bu işə maya,
Bəs niyə mən yazığı salır qısma-boğmaya?
Vilayəti soyarkən padşahın adamları,
Cinayətkar olarmı bunda məgər bir qarı?
Bu zülmə əl atarkən darğa xalq görə-görə
Mənim ismətim, sənin ədlin salınmış yerə.
Bu yaralı sinəmdən bir də axıtdılar qan,

Özümü itirmişəm, qalmamışdır məndə can.
Ey şah! Dada çatmasan, olurkən qəlbim kabab,
Qiyamətin günündə çəkilər səndən hesab.
Ah, səndə nə ədalət, nə mərhəmət görürəm,
Mən səndə sonsuz zülüm və əziyyət görürəm.
Rəiyyətə hər zaman kömək etməli padşah,
Səndən xarlıqdır gələn bizə, ol bundan agah.
Bir hünər deyil almaq yetimlərin malını,
Buna mərdlik deməzlər, düşün işin dalını.
Çapdırıb qarıları, qırdırma gəl acından,
Onların gəl utan bir qar kimi ağ saçından.
Sən bir qulkən edirsən padşahlıq iddiası;
Azğınsan, şah deyilsən, sənsən doğuran yası.
Padşah öz ölkəsini görmək istəsə abad,
Etsin rəiyyətini gərək məsud, gərək şad.
Ta ki hamı hökmünə etsin hörmət, əysin baş,
Könüllər onu bilsin özünə bir dost, sirdaş.
İşlərinlə aləmi alt-üst eyləmisən sən,
Söylə bir, özlüyündə nə hünər göstərmisən?
Bir zamanlar türklərin çox yüksəkdi dövləti,
Bəyənildi hər yanda ölkəsi, ədaləti.
Zalımlığın bəllidir, işin-peşən talandır,
Sən ki hindli quldursan, türk olmağın yalandır.
Dağıldı şəhərlinin evi sənin əlinlə,
Əkinçinin xırmanı dənsiz qaldı səninlə.
Ölümün dəhşətindən qorxub bir hesab apar,
Növbə sənə də çatar, əlini eylə hasar.
Ədalət çırağındır yolunda, olma naşı,
Bu günündür sabahın ən mehriban yoldaşı.
Qarıları sözünlə şad et, sevdir özünü,
Sən bu qoca qarının unutma gəl sözünü.
Çəkin, çarəsizlərin dağıtma var-yoxunu,

Bəlkə, o qəmlilərin yeməyəsən oxunu.
Sən ki hər bir bucağa ox atırsan bu qədər,
Acların qarğışından, söylə, qafilsən məgər?
Unutma ki, aləmi açmağa bir açarsan,
Dünyada zülm etməyə yaranmış məgər insan?
Sən hökmdar olmusan, yetişəsən haraya,
Daim məlhəm qoyasan vurulan hər yaraya.
… Hər zaman rəiyyətin diləyinə qulaq as,
Ürəkdən məzlumların ürəyinə qulaq as.
Çox danışdın, qalx, yetər bu şairlik ilhamı,
Qana dönmüş qəlbinə qan qoymuşdur Nizami.

Virtual olaraq keçirilən tədbirin sonunda münsiflər heyəti qiraəti ilə seçilən iştirakçıların adlarını qeyd edir və tədbir iştirakçılarına təşəkkürlərini bildirirlər.

Kitabxanada oxucular tərəfindən sevilən tədbirlərdən biri də *"Nizami yaradıcılığı fırçamızda"* adlı **virtual rəsm müsabiqəsi**dir. Müsabiqə F.Köçərli adına Respublika Uşaq Kitabxanasının əməkdaşları tərəfindən elan olunur. Müsabiqə zamanı xeyli sayda məktəblilər müsabiqəyə cəlb olunur. İştirakçılar təkrarsız düha Nizami Gəncəvi və onun əsərləri ilə tanış olur və şairin öz rəsmi ilə yanaşı onun əsərlərinə uyğun şəkillər, eləcə də əsər qəhramanlarınıın rəsmlərini çəkirlər. Şəkillərin hazırlanması üçün uşaqlara iki həftə vaxt verilir. Bu vaxt ərzində iştirakçılar ədibin müxtəlif adda əsərlərini oxuyur, yadda qalan səhnələrə uyğun şəkillər çəkirlər. Ən çox diqqəti çəkən motivlər, əsər qəhrəmanları, təbiət təsvirləri və s. ağ vərəqlərə həkk olunur. İştirakçılar çəkdikləri rəsmləri kitabxananın elektron ünvanına göndərirlər. Müsabiqənin qaliblərini müəyyən etmək üçün münsiflər heyəti təyin olunur.
Sözü gedən heyət fərqlənən rəsmləri diqqətli bir şəkildə nəzərdən keçirərək, qalibləri müəyyən edirlər. İştirakçılar

kitabxananın təşkil etdiyi zoom proqramı ilə tədbirə qoşulurlar. Qaliblərin adlarını qeyd edən kitabxanaçı bütün iştirakçılara təşəkkürünü bildirir.

"Nizami İli" və ədibin 880 – illik yubileyi münasibəti ilə kitabxanada keçirilən tədbirlərdən biri də *"Nizaminin bilik dünyası"* adlı **rəy sorğusudur.** Tədbirin keçirilməsində əsas məqsəd Şərqin sönməyən günəşi Nizamini və onun misilsiz yaradıcılığını gənc oxuculara tanıtmaqdır. Bunun üçün rəy sorğusu haqqında məlumat kitabxananın müxtəlif adda sosial şəbəkələrində elan olunaraq oxucuların nəzərinə çatdırılır. Sorğuda iştirak etmək istəyən oxucular kitabxananın sosial şəbəkə ünvanlarına onlayn şəkildə müraciət edərək tədbirə qatılırlar. Kitabxana əməkdaşı sualları sosial şəbəkə vasitəsilə oxuculara təqdim edir.

**Suallar:**

**1.** Nizami Gəncəvi haqqında bildiklərinizi qısa şəkildə qeyd edin: (Doguldduğu ölkə, şəhər, tarix)

__________________________________________________

__________________________________________________

__________________________________________________

**2. Nizami Gəncəvinin əsl adını qeyd edin.**

A. Yusif B. İlyas C. Firdovsi

3. **Şairin özünə təxəllüs götürdüyü "Nizami" sözünün mənası nədir?**

A. Sənətkar, ustad; B. Xəmsə; C.Nizamlayan, nizam verən

**4. Nizami Gəncəvini dünya bədii fikir tarixinə tanıdan onun hansı əsəridir?**

A. Xəmsə; B. Qarı və Sultan Səncər dastanı; C. Qəzəlləri

**5. Şairin 20 min misraya yaxın olan "İsgəndərnamə" poeması neçə hissədən ibarətdir?**

A. Şairin 20 min misraya yaxın olan "İsgəndərnamə" poeması beş hissədən ibarətdir və "Xəmsə" adlanır.

B. Şairin 20 min misraya yaxın olan "İsgəndərnamə" poeması iki hissədən ibarətdir və birinci hissə "Şərəfnamə", ikinci hissə "İqbalnamə" adlanır.

C. Şairin 20 min misraya yaxın olan "İsgəndərnamə" poeması bir hissədən ibarətdir və "İsgəndərnamə" adlanır.

**6. Nizami Gəncəvinin ilk böyük əsəri (poeması) hansıdır?**

A. "Sirlər Xəzinəsi"
B. "Şərəfnamə",
C. "Kərpic kəsən kişinin dastanı"

**7. Nizami Gəncəvinin hər hansı əsərindən bir parça qeyd edin:**

____________________________________________

________________________________

**8. Mən də bir aslanam düşünsən bir az,**
**Aslanın erkəyi, dişisi olmaz... misraları hansı Azərbaycan qızının dilindən Makedoniya hökmdarı İsgəndərə söylənmişdir?**

A. Məhsəti Gəncəvinin
B. Nüşabənin

C. Sara Xatunun

9. **Nizami Gəncəvinin əsərlərindəki qəhrəmanların bir neçəsinin adlarını sadalayın:**

   ______________________________________________

   _____________________________________________

10. **Nizami Gəncəvinin "Oğlum Məhəmmədə nəsihət" adlı şeiri hansı poemasındandır?**

    A. Leyli və Məcnun; B. Xosrov və Şirin: C.Yeddi gözəl"

***Cavablar:*** 1. .... ; 2. A) ; **3.** C) **;** 4. A)**;** 5. B); 6. A); 7. ...; 8. B); 9. .... 10. A.

Azərbaycanın böyük şairi Nizami Gəncəvinin 880-illik yubileyi və eləcə də "Nizami İli" elan olunması münasibəti ilə kitabxana tərəfindən onlayn olaraq təşkil olunmuş tədbirlərdən biri də "Nizami yaradıcılığında azərbaycançılığın təməli" adlı **konfransdır.** Konfrans zoom proqramı vasitəsilə ilə həyata keçirilir. Konfransa ədəbiyyat müəllimləri, nizamişünaslar və yuxarı sinif şagirdləri virtual olaraq dəvət olunur. Təyin olunmuş vaxtda virtual iştirakçılar kitabxana əməkdaşının təqdimatı ilə müəyyən ardıcıllıqla öz çıxışlarına keçid alırlar.
***I İştirakçı:*** Maraqlıdır ki, ömrü boyu yalnz şairlik etmiş Nizami Gəncəvi hətta böyük hərflər ilə yazdığımız "Şair" sözünə sığmır, adı hər dəfə çəkiləndə fəlsəfə, astronomiya, təbabət tarixi, dilçilik, hüquq, etnoqrafiya kimi elm sahələrinin mahir bilicisi epitetlərini söyləməyi sanki bizdən tələb edir. Görünür, böyüklüyü də elə bundadır ki, saydığımız və saymadığımız epitetlərin hamısını, bircə "Şair" anlayışına sığdıra bilmiş və bu kəlməyə o vaxtacan misli görünməmiş mündəricə və məna, şərəf və ləyaqət nuru gətirməyi bacarmışdır. Parlaq və alovlu yay günəşi və sakit dənizin aynasında necə bərq vurursa,

Azərbaycan xalqının XIII yüzilədək keçdiyi tarixi keşməkeşlərin çoxəsirlik zəngin təcrübəsi, fkir və ehtiras burulğanları, maddi və mənəvi mədəniyyətinin böyüklüyü, çörək və istiqlal uğrunda mübarizəsi Nizami Gəncəvinin poeziya aynasında eləcə aydın görünür. Nizami Gəncəvi yaradıcılığı o vaxta qədərki Azərbaycan gerçəkliyinin və mənliyinin bədii ensiklopedisisir. Ulusun və xüsusən də zəhmətkeş xalqın elə bir müqəddəs niyyəti, fikir və ümid çırpıntısı yoxdur ki, bədii möcüzə kimi yaranmış Nizami poeziyasında əbədiləşməsin, şeirin ecaskar gücü ilə misralarda şəfəqlənən söz materiallarına çevrilməmiş olsun.

Səkkiz əsrdən çoxdur ki, bədii sözün qədrini bilən bəşəriyyətin müxtəlif qitələrindən yönələn nəzərləri Nizaminin Azərbaycanda ucalan əzəmətli heykəlinə zillənmişdir. Bunun səbəbi odur ki, öz əsrinin ən böyük övladı dünya vətəndaşı adlanmağa layiq Nizami bütün əsrlər, zamanlar üçün öz bədii gücünü saxlayan ölməz əsərlər yarada bilmiş, Azərbaycan poeziyasının beşiyi başında dayanmış, ona tamamilə yeni məndəricə, inqilabi ruh və o vaxtacan misli görünməmiş xəlqilik, bəşəri qayələr ilə aşılanmış romantika, həqiqət işığı gətirmişdir. Nə sağlığında, nə də vəfatından keçən illər ərzində Nizami irsinə maraq, məhəbbət heç vaxt soyumayıb.

"Dünya dahilərsiz yaşaya bilməz",- deyirlər. Çünki dahilər peyğəmbərlər irsinin davamçılarıdır. Ulu tanrı yerlərə və göylərə hökm edir... Dahilərin hansı insan cəmiyyətində yaranmasına məhdudiyyət yoxdur. Fövqəlbəşər şəxsiyyətlər böyüklüyündən, kiçikliyindən, irsndən, dilindən, məkanından asılı olmayaraq, bütün insan cəmiyyətlərində yaranır.

Hər bir fövqəlbəşər şəxsiyyətin özü bəşər cəmiyyətinin mənəvi sərvəti olmaqla yanaşı, həm də öz millətinin və xalqının övladıdır, bu millətin və xalqın fəxridir, onun tarixinin və mənəviyyatının silinməz yaddaşıdır. Tarix boyu dahi

şəxsiyyətlərin yetişirilməsi Azərbaycan xalqına da nəsib olmuşdur. Azərbaycan xalqı içərisindən də dünya mədəniyyətini, dünyanın sosial, siyasi mühitini bəşəri ideyalarla zənginləşdirən dahi şəxsiyyətlər yetişmişdir. Hər dörd yüz ildən bir yetişən bu dahi şəxsiyyətlər Nizami Gəncəvi, Məhəmməd Füzuli, M.Ə.Sabir, Hüseyn Cavid və s. dir. Bu böyük şəxsiyyətlər, ayrı-ayrı dövrlərdə, ayrı-ayrı sosial-ictimai mühitdə yaşamış olsalar da onları ictimai təfəkkür birləşdirir. Bu əlaqə dahi şəxsiyyətlərin təfəkküründə formalaşmış ideyaların bəşəri xarakterindən və bu ideyaların biri digərini zənginləşdirən daxili bağlılığından ibarətdr.

***II İştirakçı:*** Bu böyük şəxsiyyətlərin ictimai təfəkküründə bir-biri ilə tipoloji əlaqə yaradan və biri digərinin zənginləşməsinə çevrilən bəşəri ideyalar nədən ibarət olmuşdur? İlk növbədə azadlıq, müstəqillik, azad, sərbəst düşüncə mühiti, azad, xoşbəxt cəmiyyət quruculuğu, azadlıq ideyalarının cəmiyyət həyatına tətbiqi və bir qədər müasirləşdirsək demokratik quruluş. Bu ideyalar ilk Şərqdə baş qaldırmışdır. Onun Azərbaycan məkanında ən böyük carçısı bu xalqın layiqli övladı Nizami Gəncəvidir. Məhəmməd Füzuli isə dörd yüz ildən sonra bu ideyaları Azərbaycan mühitinə gətirmişdir. Nizami bəşəri ideyaları öz əsərlərində bədii təxəyyülün məhsuluna çevrilib azərbaycan cəmiyyətində görmək istəyirdi. Füzuli həmin ideyaları yaşadığı Azərbaycan mühitinə tətbiq etməyi arzulayırdı. Çox doğru olaraq düşünürdü ki, sadəcə təsvir etməklə, arzulamaqla həmin ideyalar bəhrə vermir. Bu ideyaları həyata keçirmək üçün bir liderə ehtiyac olduğunu başa düşürdü. Ancaq tarix belə bir lideri yetişdirməmişdi. Ona görə də Füzuli deyirdi:

Ey Füzuli, nə gözəldir sözü azədəliyin
Hanı bir sərv ki, bu aləmdə vardır səməri...

Yəni Füzuli doğru olaraq düşünürdü ki, azadlığı, azad cəmiyyət quruculuğunu, cəmiyyət demokratiyasını həyata tətbiq etmək üçün bir lider, bir başçı lazımdır.

Nizami azadlıq, azad cəmiyyət ideyalarını formalaşdıranda, bu cəmiyyətin reallaşmasını tarixi təcrübəyə çevirmək üçün öz əsərlərində utopik bir cəmiyyət yaratdığı zaman Qərb ölkələri həmin ideyalardan bixəbər idi. Avropada ilk utopistlər Füzuli dövründən sonra yetişməyə başlamışlar. Demək olmaz ki, onlar Nizami əsərlərindən bəhrələnməmişlər. Ancaq Füzulinin arzuladığı lider zəruriyyətinin idrakına çata bilməmişdilər. Nizami utopizmindən isə irəli getməyə nail ola bilməmişdilər. Bəs Nizaminin özü azad insan cəmiyyəti ideyaları üçün hansı mənbəyə istinad etmişdir?

Bu məsələ əlbəttə ki, qaranlıq deyildir. Nizami dahi olduğu üçün həm də, peyğəmbər irsinin davamçısıdır.

Hər şeydən əvvəl Nizami azərbaycanlı olduğu üçün həmin ideyaların Azərbaycan cəmiyyətində baş tutmasını arzulayıb. Nizami ideal cəmiyyət yaşatmaq üçün Azərbaycanda daha çox təriflədiyi Bərdə məkanını seçib. Nüşabənin timsalında ədalətli hökmdar yaradıb. Ona görə də artıq işdir ki, tədqiqatçılar Nizaminin hansı millətə aid olduğu barədə yersiz baş sındırmağa məcbur oldular. Bu böyük şəxsiyyət yükləmələrin bütün mənbələrin təsdiq etdiyi kimi, Gəncədə doğulub, Gəncədə yaşayıb, Gəncədə dünyaını dəyişmişdir. Nizaminin ən böyük əsərlərini fars dilində yazması ilə bəziləri deməyə əl yeri axtarırlar ki, "bəlkə Nizami başqa bir xalqın nümayəndəsidir". Əslində isə bu boş fikrə heç bir bəraət yoxdur. Həqiqət budur ki, Nizami dahidir. Etnik mənşəyi azərbaycanlılara aiddir, ideyaları isə bəşəridir. O ideyalardan bəhrələnməyə hər kəsin haqqı var. Nizaminin etnik aidiyyatını dəyişməyə, cəhd göstərməyə isə heç kəsin haqqı yoxdur. Əlbəttə ki, hər bir xalq

istərdi ki, onun Nizamisi olsun. Ancaq bu mükafat Azərbaycan xalqına bəxş edilib. Nizaminin fars dilində yazdığına gəlincə, əvvəla ona görə ki, fars dili dövrün poeziya dili idi. İkincisi, Nizamidən böyük əsərlər yaratmağa dövrün hökmdarları sifariş edirdilər. Üçüncüsü fars dili dövlətin dili idi, onun sabit normaları var idi. O dövrün normaları indi də sabit qaldığı üçün Nizami əsərləri qaranlıqda qalmayıb, oxunub və oxunur. Ancaq demək olmaz ki, Nizami böyüklükdə dahi öz ana dilinə, biganə olub. “Leyli və Məcnun” un “Kitabın yazılmasının səbəbi” adlı hissəsində Axsitanın fars dilində yazmaq tələbi onu hiddətləndirir. Hökmdardan gələn məktubda deyilir:

Türk dili yaraşmaz şah nəslimizə
Əksiklik gətirər türk dili bizə.
Yüksək olmalıdır bizim dilimiz,
Yüksək yaranmışdır bizim nəslimiz.

*Bunun qarşısında Nizami öz hiddətini belə bildirir.*

Qulluq halqasına düşdü qulağım
Qan vurdu beynimə, əsdi dodağım.
Nə cürətim vardır əmrdən qaçam
Nə də gözüm vardı, xəzinə açam.

Buradan belə başa düşülür ki, Nizami “Leyli və Məcnun” dan əvvəl öz doğma Azərbaycan dilində sənət əsərləri yaratmışdır. Çox təəssüf ki, onlar bizə gəlib çatmamışdır. Həmin məlumatlar əldə olsaydı, o zamankı dilimiz, mədəniyyətimiz, məişətimiz və ictimai təfəkkürümüz barədə çox qiymətli informasiyalar alınardı. Onu da qeyd etmək yerinə düşər ki, fars şovinizmi Azərbaycan haqqında “Türki” ifadəsini işlədir. “Türki” yəni türkə oxşayan deməkdir. Olsun ki, Nizami buna görə də hiddətlənmişdir. Çünki Nizaminin özü öz əsərlərində “Azərbaycan” adını işlədir. Gəncə, Bərdə, Şirvan haqqında

məhəbbətlə söhbət açır. Eyni zamanda, iranlılarla mübarizə aparan Turan (türk) hökmdarı və sərkərdəsi Əfrasiyabı (Ər Tonqanını) rəğbətlə yada salır.

***III İştirakçı:*** Nizaminin əsərlərində Azərbaycan məkanı ilə bağlı məqamlar çoxdur. Nizaminin dilinə gəlincə onun dilində çoxlu Azərbaycan sözləri və Azərbaycan dili ilə bağlı farsca tərcümə edib, işlətdiyi aforizmlərə təsadüf olunur. Nə Nizamidən əvvəlki, nə də Nizamidən sonrakı iran şairlərinin əsərlərində Nizaminin işlətdiyi Azərbaycan sözləri yoxdur. Çünki bunlar, bilavasitə Azərbaycan həyatı və məişəti, xüsusi ilə Gəncə mühiti ilə bağlı sözlərdən ibarətdir. Bəzi sözləri isə Nizami fars dilinin müqabilində özü yaratmışdır. Məsələn, mənşəcə fars dilinə məxsus olan "pərdə" sözü dilimizdə indi də işlənilir. Nizami isə bu sözün əvəzinə "tutuq" (pəncərənin qarşısını tutan) sözü düzəldib işlədir. Nizanminin dilində, həmçinin məişətlə bağlı balınc, boqab, qab, qaşıq, qazan, corab, çarıq, qayçı, döşək, düymə, ələk, qışlaq, yaylaq, qıfıl, tağar, (ölçü), tuman, taba; yeməklə bağlı aş, dolma, qıyma, qaymaq qatıq, kişmiş, fındıq, qurut, gilas, tumac, armud; ordu ilə bağlı ordu, qoşun, süvari, çavuş, bölük, minbaşı, yüzbaşı, yaraq-yasaq, çadır, tüfəng, çaxmaq, və s. çoxlu sözlər işlədilmişdir. Hərçənd bu sözlərin fars dilində qarşılıqları vardır. Bütün bunlar Nizamidə azərbaycançılığın təməlini təşkil edir. Dahilər heç vaxt ölmürlər. Onları ilahi ruh yaşadır. Onları özlərinin cəmiyyət həyatındakı xeyirxah əməlləri yaşadır. Bu mənadada Nizami bütün dövrlər üçün canlıdır. Onların əməlləri bir nəsildən digər nəslə örnək kimi yaşayacaqdır.

*Daha sonra məktəblilər Dahi şair Nizami Gəncəvinin kəlamlarını söyləyərək tədbiri sonlandırırlar.*

Xalq mənə versə də əziyyət, kədər,
Qıymaram incisin məndən bir nəfər.
*(Şərəfnamə)*

Eşqinlə atəşə dön, nifrətinlə buza dön,
El yolunda günə dön, aya dön, ulduza dön!
Yaxşılığın hər yanda qapı açar üzünə…
*(Sirlər xəzinəsi)*

Əziyyət eyləsən, cəfa görərsən,
Mehribanlıq etsən, səfa sürərsən.
*(Xosrov və Şirin)*

Yamanlıq etməkdən uzaq ol, uzaq,
Pisliyin əvəzi pislik olacaq.
*(Xosrov və Şirin)*

Yaxşılıq etməsən əgər insana,
Böyüklük şərəfi verilməz sana.
*(Leyli və Məcnun)*

Bir xərabə görsən, qurmağa tələs,
Məsləhət belədir, əməyin itməz.
*(Leyli və Məcnun)*

Dünyanın işini yaxşı düşün sən,
Nə əksən, onu da sən biçəcəksən.
Yaxşı iş də görsən, pis iş də, inan,
Unutmaz onları bu qoca dövran.
*(Xosrov və Şirin)*

Zəhmətlə açarsan bağlı tilsimi,
Açdın, xəznə çıxar aydın gün kimi.

*(Xosrov və Şirin)*

Bu dərya yolunda vardır çox zəhər,
Əziyyət çəkənlər dürr əldə edər.

*(Xosrov və Şirin)*

Bilikli adamlar uzağı görər,
Cahilin zəhməti hədərdir, hədər.

*(Yeddi gözəl)*

Ucalmaq istəsən, bir kamala çat,
Kamala ehtiram göstərər həyat.

*(Leyli və Məcnun)*

Bir elmi öyrənmək istədikdə sən
Çalış ki, hər şeyi kamil biləsən.
Kamil bir palançı olsa da insan,
Yaxşıdır yarımçıq papaqçılıqdan.

*(Leyli və Məcnun)*

Doğru yazmağa var madam ki, imkan,
Neçin gəlməlidir ortaya yalan!
Sözün qiymətini saldı yalanlar,
Doğrunu danışan hörmətli olar.

*(Xosrov və Şirin)*

Ölkədə tərk olsa sənət, sənətkar,
Heyhat, bundan böyük fəlakətmi var?
Sənətkar əl çəkmiş öz sənətindən,
Başqa bir sənətə yapışmış cəbrən.

*(Şərəfnamə)*

Eşqdir mehrabı uca göylərin,
Eşqsiz, ey dünya, nədir dəyərin?
*(Xosrov və Şirin)*

Oğul, sözlərimə yaxşı qulaq as!
Ata nəsihəti faydasız olmaz.
*(Leyli və Məcnun)*

Azərbaycanın böyük şairi Nizami Gəncəvinin 880-illik yubileyi və eləcə də "Nizami İli" elan olunması münasibəti ilə kitabxana tərəfindən onlayn olaraq təşkil olunmuş tədbirlərdən biri də *"Mütəfəkkir, sənətkar Nizami Gəncəvi"* adlı **oxucularla onlayn söhbətdir.** Tədbir kitabxanın əməkdaşları tərəfindən zoom proqramı vasitəsi ilə onlayn olaraq həyata keçirilir. Virtual söhbət məktəbin yuxarı sinif şagirdləri və ali məktəb tələbələri üçün nəzərdə tutulur. Tədbiri açıq elan edən kitabxanaçı Nizami Gəncəvinin həyat və yaradıcılığı haqqında məlumat verir.

***Kitabxanaçı:*** Nizami Azərbaycanın qədim paytaxtlarından olan Gəncədə doğulub, yaşayıb və dəfn edildiyi üçün Gəncəli Nizami mənasında işləndiyi Nizamiyi-Gəncəvi adıyla tanınmışdır. Nizami "nami-müstəar" deyilən götürmə bir addır, əski sözlə desək, təxəllüsdür. Şairin əsl adı "İlyas"dır. Məxəzlərdə qeyd olunmamışdır. Şairin ləqəbi "Nizaməddin"dir. Künyəsi "Əbu-Məhəmməd" dir.

Nizaminin yüksək təhsil alması onun əsərlərindən və müasirləri tərəfindən ona "Həkim" (böyük, bilici, müdrik) ləqəbinin verilməsindən aydın görünür. XII əsrin məşhur ürfan sahələrinin hamısından əsərlərində əlamətləri görünən bu ensiklopedik bilikli adamın İslam elmləri ilə yanaşı yunan

fəlsəfəsinin bütün hissələri ilə yaxından tanış olub bəhrələndiyi heç bir şübhə doğurmur. "İskəndərnamə" də bütün tanınmış yunan filosoflarının hamısını danışdıran şair, onların "dünyanın yaranışı" haqqındakı fikir sistemlərini özünəməxsus şer dili ilə xülasə etmişdir. Bundan əlavə, şair tarixə, dinlərə, hikmətə, həndəsəyə, riyaziyyata, astronomiyaya, sehriyyat və əsatirə dair geniş məlumata sahib olduğunu göstərmişdir. Əsərlərini təşkil edən canlı səhifələr zamanının əsl bir ensiklopediyasıdır.

Şairin musiqi aləmində geniş biliyə malik olduğunu Barbədin Xosrov-Pərvizə çaldığı otuz mahnının ustalıqla hərəsini bir beytlə təsvir etdiyindən, ədəbiyyat sahəsində olan dərin məlumatını "Kəlilə və Dimnə" nin təmsillərinin qırxını qırx beytə sığışdıra bildiyindən, İslam elmlərinin dərinliklərinə vardığını Quran, hədis, Peyğəmbərin tərcümeyi-halı və onun haqqındakı rəvayətlərdən, astronomiya aləmində böyük mütəxəssis olduğunu isə Məcnunun ulduzlara öz vəziyyətini şərh etməyindən öyrənirik. Həkimliyin, təbabətin mahiyyətini şair iki kəlmə ilə izah edir: "Nə az ye, nə də çox...".

Əsərlərinə yazdığı müqəddimələrdən çıxan məlumata görə, Nizami qədim dillərdən pəhləvi, nəsturi, yəhudi dillərini də bilirmiş. O, öz poemaları üçün topladığı materialları adi və geniş yayılmış sadə qaynaqlardan deyil, qeyd edilmiş qədim dillərdəki məxəzlərdən dəqiq araşdırmalar vasitəsilə əldə etdiyini bizə anlatmışdır. Nizami dövrünün başqa məddah şairlərindən fərqli olaraq, hökmdarlar qapılarından uzaqlaşıb təvazökar bir həyat tərzində yaşamışdır. Şair bu hərəkətin hikmətini bizə belə şərh etmişdir: "Padşahın verdiyi maaşdan imtina et, bundan gələcək şey bədbəxtlik və avaralıqdan ibarətdir. Padşahla durub-oturmaqdan çəkin, çünki bu pambıqla odun münasibətinə bənzər. Od nə qədər parlaq olsa da, salamatlıq ondan uzaqlarda olur. Pərvanə şamın işığına can ataraq, ona yaxınlaşınca yanır".

Nizami yüksək əxlaq sahibi olmuşdur. Dünyanın heç bir zaman boş qalmadığı qaba tiplərlə bədniyyətli adamlarından Nizaminin həddindən artıq çəkdiyi əziyyətlər onun şikayətnamələrindən aydın görünür. Lakin şair öz müasirləri kimi qabalıq və kobudluqlara şiddət və hiddətlə deyil, özünəməxsus yumşaqlıq və yaxşılıqla qarşı çıxmışdır. Təbiət etibarilə yumşaq və hamıya yaxşılıq diləyən şair ona pislik istəyənlərə belə, pislikdən çəkinmişdir. Onun sözlərilə desək, o, pislik edərsə, "bu pislikdən mənəvi əzab çəkəcəyinə" əmin olmuşdur. Yaxşı olmaq, yaxşılıq etmək və yaxşılıqda qalmaq şairin həyatdakı əsas prinsipi olmuşdur. Kobudluq qarşılıqlı kobudluqla deyil, əksinə, yaxşılıqla aradan qaldırıla bilər. "Ömrünün sonuna qədər yaxşılıq edə bilsə" şair özünün "yaxşı adamların ziyarətgahı" olacağına inanmiş və bu haqda yazmışdır. Əsərlərində hamıya tövsiyyə etdiyi: "Həvəs və nəfsə hakim olmaq lazımdır" prinsipinə ömrünün axırına qədər sadiq qalan bu Allah adamı, öz "əlinin zəhməti" sayəsində ömrünü kasıb "dərviş əzəməti" ilə keçirmişdir. Zəmanəsinin o biri şairləri kimi Nizami saraylarda qulluq edib, padşahların arxasınca getməmişdir. Hökmdarların hüzuruna çox nadir və yalnız xüsusi surətdə çağrıldığı hallarda getmişdir.

Nizaminin qəsidələri, təzkirəçilərin yekdilliklə söylədikləri kimi, sufilikdən, inziva və guşənişinlikdən, dünya nemətlərindən pəhriz etməkdən və hamının mənafeyinə çalışmağa çağıran öyüd-nəsihətlərdən ibarətdir. Başqalarına qayğı göstərmək, "bacarırsansa başqasının yükünü çək, yük çəkən birisini qurtarmaqdan daha yaxşı nə ola bilər". Nizaminin bu dedikləri onun təbiətinin ən xarakterik xüsusiyyətlərini təşkil edir.

Şair "Xosrov və Şirin" ilə "Yeddi gözəl" kimi saray həyatı ilə "çalğı" və "içki" məclislərinin incəliklərinə varıncaya qədər ən parlaq təsvirlərini verə bildiyi halda, bu kimi eyş və işrət

məclislərinə getməmiş, ömründə, bir dəfə də olsun, ağzına "içki" almamış və ya öz ifadəsi ilə desək, o, dodağı ilə ətəyini şəraba bulaşdırmamışdır. Bu dediklərimizi həm şair özü poemalarında qeyd etmiş, həm də onun həyatı haqqında məlumat verən təzkirəçi və alimlər bir ağızdan təsdiq etməkdədirlər.

"İskəndərnamə" də öz vəziyyətini təsvir edərkən, bilavasitə bildirir ki, o, "Allaha sığınmaqdan başqa bir qayğısı olmayan bir mütəfəkkirdir" və sonra özünü məşhur yunan filosofu Sokrata bənzədir. İnzivada yaşayan şair ona göstərilən ehtiram və etibarın səbəbini yenə Sokratın cümləsi ilə şərh edir: "İnsanlar onlardan qaçanlara daha çox meyl edirlər".

Beş böyük məsnəvisindən birincisi – "Məxrənül-əsrar" ı Nizami hicrinin 559-cu ilində (miladi: 1160-cı ildə) yazmışdır. Həmin tarixdə şair 20 yaşında olmuşdur. "Məxzən" onun ilk əsəri deyildir. O vaxtlarda şair sufiyanə qəsidələri, qəzəlləri və başqa şerləri ilə artıq yaxşı tanınmış bir sənətkar idi. Qəzəllər öz dövründə hər yana yayılmış və bütün oxucular tərəfindən sevilmişdi. Azərbaycan Atabəylərindən Qızıl Arslanın məclislərində xanəndələrin onun qəzəllərini oxuduqlarını şair özü qeyd etmişdir.

Son böyük əsəri "İskəndərnamə" ni Nizami hicrinin 597-ci ilində (miladi: 1201-ci ildə) yazmışdır. Bu tarixdən dörd və ya beş il sonra təsvir etdiyi bütün qəhrəmanları kimi o da kədərli bir aqibətə uğramışdır. İskəndərin və onun ətrafındakı yunan filosoflarının ölümünü bir-bir təsvir edən həkim şair öz ölümünü də təsəvvür etmiş və "onların yuxuya getdikləri kimi Nizami də uyudu" demişdir.  Altmış üç ilə yaxın ömrünün yarım əsrlik mühüm bir qismini sənət, hikmət və insanları düz yola hidayət etməyə sərf etmişdir. Beləliklə, dünyanın ölməzləri sırasına keçən Nizami, həyatında arzu etdiyi kimi, ömrünün sonuna

qədər özünə sadiq qalan şəxsiyyəti ürfan əhlinin mənəvi ziyarətgahı olmuşdur.

Azərbaycanın böyük şairi Nizami Gəncəvinin 880-illik yubileyi və eləcə də "Nizami İli" elan olunması münasibəti ilə kitabxana tərəfindən onlayn olaraq təşkil olunmuş tədbirlərdən biri də "Dəryadan bir damla" adlı dəyirmi masadır. Tədbir kitabxanın əməkdaşları tərəfindən zoom proqramı vasitəsi ilə onlayn olaraq, orta məktəb şagirdləri və oxucular üçün nəzərdə tutulur. Tədbiri açıq elan edən kitabxanaçı virtual iştirakçıları salamladıqdan sonra Nizami Gəncəvinin dərin irsi haqqında onları məlumatlandırır.

***Kitabxanaçı:*** Məlum olduğu kimi, orta əsrlərdə Azərbaycanda zəhmətkeş balalarının tərbiyə və təhsil alması üçün geniş məktəb şəbəkəsi olmamışdır. Nizami dövründə təhsil müəssisələrinin, əsasən, az sayda mollaxanalardan, tək-tək hallarda isə mədrəsələrdən ibarət olduğu məlumdur. Bununla belə orta əsrlər Azərbaycanı dünyanın ən görkəmli mütəfəkkirləri ilə bir sırada dayanan Xaqani Şirvani, Nizami Gəncəvi, Məhsəti Gəncəvi, Nəsirəddin Tusi, Şeyx Mahmud Şəbüstəri, İmadəddin Nəsimi, Saib Təbrizi kimi görkəmli alimlər və sənətkarlar yetirmişdir.

Geniş məktəb şəbəkəsinin olmadığı bir şəraitdə həmin şəxsiyyətləri müəyyən mənada ailə tərbiyəsinin yetirməsi hesab etmək olar. Çünki Xaqaninin, Nizaminin, Xətainin, S.Təbrizinin və bir çox başqalarının inkişafı və formalaşmasında ailə tərbiyəsinin əsas rol oynadığı məlumdur. Belə olduğu halda Azərbaycanda orta əsrlərə məxsus ailə tərbiyəsi məsələlərinin öyrənilməsi də maraq doğurmaya bilməz. Bizə elə gəlir ki, həmin məsələnin öyrənilməsi ən azı iki cəhətdən əhəmiyyətlidir: birincisi, həmin sahə öyrənilməklə qədim Azərbaycanda ailə tərbiyəsinin məzmunu, məqsəd və vəzifələri, üsul və vasitələri müəyyənləşdirilər, pedaqoji fikir tariximizin maraqlı səhifələri elm aləmində öz qiymətini almış olar. İkincisi, ailə tərbiyəsi

tarixində istifadə edilmiş üsul və vasitələrin, ənənələrin bugünkü baxımdan faydalı olanları üzə çıxarılıb tərbiyəçilərin nəzərinə çatdırıla bilər.Həmin məqsədlə də bu yazıda Nizami Gəncəvinin ailə tərbiyəsinə həsr etdiyi fikirlər üzərində dayanmağı lazım bildik:1) Ailə qurularkən əməl edilməli olan əsas tələblər və ailənin əsas məqsədi haqqında; 2) Ailədə uşaq tərbiyəsinin əsas şərtləri haqqında. Nizaminin əsərlərində ailə tərbiyəsinin şərtləri, üsul və vasitələrini aydınlaşdırmazdan əvvəl böyük mütəfəkkirin ailə qurmaq məsələsinə münasibətini müəyyənləşdirmək vacibdir. Nizamiyə görə, cəmiyyət üçün faydalı olacaq gənc nəslin tərbiyə edilməsi möhkəm bünövrələr üzərində dayanan ailələrdə mümkündür. Nizami ailə məsələsində daha humanist və orijinal mövqe tutmuşdur. Onun fikrincə, ailə bir-biri ilə vəhdətdə olan iki əsas məqsəd daşımalıdır: birincisi, ailə insanın maddi və mənəvi ehtiyaclarını ödəmək və qarşıya çıxan ictimai və şəxsi vəzifələri köməkli surətdə yerinə yetirmək, ikincisi valideynlərin özlərini əbədiyyətə qovuşdurmaq, övlad böyüdüb tərbiyə etməkdən ibarətdir.

***F.Köçərli ad. RUK-un fondunda olan kitabların siyahısı***

Əsərlər : 2 cilddə. I cild : poemalar - Bakı : Şərq-Qərb, 2013. - 780 s.

Əsərlər : 2 cilddə. II cild : poemalar - Bakı : Şərq-Qərb, 2013. - 764 s.

Folklor və klassik uşaq poeziyası. - Bakı : [s. n.], 2018. - 295 s. - (Uşaq ədəbiyyatı).

Günəş diyarı : "Xəmsə"dən hekayətlər, əfsanələr və rəvayətlər : 1141-1209. - Bakı : Ayna Mətbu Evi, 2002. - 92 s. : rəngli il.

Hər gecəm oldu kədər : qəzəllər. - Bakı : Azərbaycanın Dostluq Cəmiyyəti, 1991. - 112 s : portr.

Xəmsə : poeziya. - Bakı : Turan Nəşrlər Evi, 2002. - 312 s.

Xosrov və Şirin. - Gəncə : [s. n.], 2011. - 232 s. : rəngli il.

Xosrov və Şirin : "Xəmsə" ilk dəfə nəsrlə məktəblinin kitabxanası üçün. - Bakı : Hədəf Nəşrləri, 2012. - 136 s. : portr. - (İNCİ uşaq ədəbiyyatı silsiləsi).

Xosrov və Şirin : poema. - Bakı : Adiloğlu, 2011. - 388 s.

Xosrov və Şirin : poeziya. - Bakı : Çaşıoğlu, 2004. - 320 s. - (Azərbaycan Ədəbiyyatı).

Xosrov və Şirin : poeziya. - Bakı : Lider nəşriyyatı, 2004. - 392 s. - (Klassik Azərbaycan Ədəbiyyatı).

İsgəndərnamə. - Gəncə : [s. n.], 2011. - 388 s. : rəngli il.

İskəndərnamə : "Xəmsə" ilk dəfə nəsrlə məktəblinin kitabxanası üçün. - Bakı : Hədəf Nəşrləri, 2012. - 160 s. : portr. - (İNCİ uşaq ədəbiyyatı silsiləsi).

İskəndərnamə : poeziya. - Bakı : Çaşıoğlu, 2004. - 552 s. - (Azərbaycan Ədəbiyyatı).

İskəndərnamə : poeziya. - Bakı : Adiloğlu, 2011. - 663 s.

İskəndərnamə. İqbalnamə : poeziya. - Bakı : Lider nəşriyyatı, 2004. - 256 s. - (Klassik Azərbaycan Ədəbiyyatı).

İskəndərnamə. Şərəfnamə : poeziya. - Bakı : Lider nəşriyyatı, 2004. - 432 s. ; 21 sm. - (Klassik Azərbaycan Ədəbiyyatı).

Leyli və Məcnun : "Xəmsə" ilk dəfə nəsrlə məktəblinin kitabxanası üçün. - Bakı : Hədəf Nəşrləri, 2012. - 98 s. - (İNCİ uşaq ədəbiyyatı silsiləsi).

Leyli və Məcnun : poema. - Bakı : Adiloğlu, 2011. - 280 s.

Leyli və Məcnun. - Gəncə : [s. n.], 2011. - 164 s. : rəngli il.

Leyli və Məcnun : poema. - Bakı : Lider nəşriyyatı, 2004. - 288 s. - (Klassik Azərbaycan Ədəbiyyatı).

Leyli və Məcnun : poeziya. - Bakı : Çaşıoğlu, 2004. - 240 s. - (Azərbaycan ədəbiyyatı).

Lirika. Poemalar : Qəzəllər, qəsidələr, rübailər, "Sirlər xəzinəsi", "Yeddi gözəl". - Bakı : İdeal-Print, 2011. - 800 s.

Lirika : Poeziya. - Bakı : Lider nəşriyyatı, 2004. - 160 s. - (Klassik Azərbaycan Ədəbiyyatı).

Poemalar. - Bakı : Şərq-Qərb, 2013. - 764 s. : rəngli ill., il.

Poemalar. - Bakı : Şərq-Qərb, 2013. - 780 s. : il., rəngli şək.

Poemalar. I kitab : ixtisarla. - Bakı : Maarif, 2002. - 240 s. - (Məktəb kitabxanası).

Poemalar. II kitab : ixtisarla. - Bakı : Maarif, 2002. - 212 s. - (Məktəb kitabxanası).

Sirlər xəzinəsi : "Xəmsə" ilk dəfə nəsrlə məktəblinin kitabxanası üçün. - Bakı : Hədəf Nəşrləri, 2012. - 56 s. : portr. - (İNCİ uşaq ədəbiyyatı silsiləsi).

Sirlər xəzinəsi : poema. - Bakı : Adiloğlu, 2011. - 208 s.

Sirlər xəzinəsi. - Gəncə : [s. n.], 2011. - 124 s.

Sirlər xəzinəsi : poeziya. - Bakı : Çaşıoğlu, 2004. - 168 s. - (Azərbaycan ədəbiyyatı).

Sirlər xəzinəsi : poema. - Bakı : Lider nəşriyyatı, 2004. - 264 s. - (Klassik Azərbaycan Ədəbiyyatı).

Yeddi gözəl : "Xəmsə" ilk dəfə nəsrlə məktəblinin kitabxanası üçün. - Bakı : Hədəf Nəşrləri, 2012. - 214 s. : portr. - (İNCİ uşaq ədəbiyyatı silsiləsi).

Yeddi gözəl. - Gəncə : [s. n.], 2011. - 196 s. : rəngli il.

Yeddi gözəl : poema. - Bakı : Adiloğlu, 2011. - 328 s.

Yeddi gözəl : poeziya. - Bakı : Çaşıoğlu, 2004. - 280 s. - (Azərbaycan ədəbiyyatı).

Yeddi gözəl : poeziya. - Bakı : Lider nəşriyyatı, 2004. - 335 s. - (Klassik Azərbaycan Ədəbiyyatı).

## *Elektron resurslar*

Xosrov və Şirin : poeziya. - Bakı : İnnovativ Tədris Mənbələri (İTM) QSC, 2012. - 1 el. opt. disk (CD-ROM) : ağ-qara : il. ; 12 sm. - (Nizami layihəsi).

İskəndərnamə : poeziya. - Bakı : İnnovativ Tədris Mənbələri (İTM) QSC, 2012. - 1 el. opt. disk (CD-ROM) : portr. ; 12 sm. - (Nizami layihəsi).

Leyli və Məcnun : poeziya. - Bakı : İnnovativ Tədris Mənbələri (İTM) QSC, 2012. - 1 el. opt. disk (CD-ROM) : ağ-qara : il. ; 12 sm. - (Nizami layihəsi).

Leyli və Məcnun : poeziya. - Bakı : "Avrasiya" Fondunun maliyyə dəstəyilə Azərbaycan Gözdən Əlillər Cəmiyyətinin Bakı Tədris Müəssisəsinin Səsyazma studiyası, 2004. - 7 ak. -

(Danışan kitabxana silsiləsindən).

Sirlər xəzinəsi : poeziya. - Bakı : İnnovativ Tədris Mənbələri (İTM) QSC, 2012. - 1 el. opt. disk (CD-ROM) : birrəngli ; 12 sm. - (Nizami layihəsi).

Yeddi gözəl : Poeziya. - Bakı : İnnovativ Tədris Mənbələri (İTM) QSC, 2012. - 1 el. opt. disk (CD-ROM) : portr. ; 12 sm. - (Nizami layihəsi).

***Kiçikyaşlı uşaqlar üçün***

Fitnə və Bəhram şah. - Bakı : Altun Kitab, 2013. - 23 s. : rəngli şək. ;  - (Altun klassika : 6-9 yaş).

Fitnə. - Bakı : Təhsil, 2009. - 10 s. : rəngli şək. - (Məktəb kitabxanası).

Xarəzm gözəlinin hekayəti. - Bakı : Renessans, 2019. - 8 s. : rəngli il.

Xeyir və Şər. - Bakı : Bərpanəşr, 2016. - 20 s. : əngli ill.

İlin fəsilləri : Kiçikyaşlı məktəblilər üçün. - Bakı : Bərpanəşr, 2016. - 12 s. : rəngli il.

İsgəndərin Bərdəyə gəlməsi və Nüşabə ilə görüşməsi : Kiçikyaşlı məktəbilər üçün. - Bakı : Renessans-A, 2017. - 28 s. : rəngli il.

İskəndər və çoban. - Bakı : Letterpress, 2011. - 12 s. : rəngli foto.

Kərpickəsən. - Bakı : Renessans-A, 2017. - 12 s. : rəngli il.

Mahanın nağılı  : Məğrib gözəlinin hekayəti. - Bakı : Aspoliqraf, 2010. - 15 s. : rəngli il. - (Məktəb kitabxanası).

Nəsihətamiz hekayələr : Xeyir və Şər. Şah və xidmətçi. - Bakı : Azərbaycan Gözdən Əlillər Cəmiyyəti Brayl Nəşrləri İnformasiya Resurs Mərkəzi MMC; Renessans-A, 2019. - 24 s.

Nuşirəvanla vəziri və bayquşların söhbəti : Kiçikyaşlı məktəblilər üçün. - Bakı : Bərpanəşr, 2016. - 12 s. : rəngli il.

Simnar. - Bakı : Bərpanəşr, 2016. - 12 s. : rəngli il.

Slavyan gözəlinin hekayəti : Kiçikyaşlı uşaqlar üçün. - Bakı : Renessans-A, 2019. - 8 s. : rəngli şək., rəngli il.

Şah və xidmətçi : Kiçikyaşlı uşaqlar üçün. - Bakı : Renessans-A, 2017. - 16 s. : rəngli il.

Türküstan gözəlinin hekayəti. - Bakı : Bərpanəşr, 2016. - 20 s. : rəngli il.

# Azərbaycan və dünya poeziyasının qiymətli incisi
# Nizami Gəncəvi

(metodik vəsait)

**Komputer yığımı**
**və dizayn:** **Aynurə Əliyeva**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:** info@clb.az.

**İnternet ünvanı:** **www.clb.az**